

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**Şuşa Azərbaycan iqtisadiyyatına hansı potensialı vəd edir?**




13

# Qardaşlıq və dostluq işinə böyük töhfə!



*Prezident İlham Əliyev Türkiyənin Ədalət və İnkişaf Partiyası sədrinin birinci müavini Binəli Yıldırımı qəbul edib*

2

Səs

№ 105 (6788)

15 iyun 2023-cü il.
Qiyməti 60 qəpik

*Bu gün xalqımız böyük sevinc və qürurla müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi ümummilli liderimiz Heydər Əliyevin 100 illiyini qeyd edirik. Bu yubiley ili daha yaddaqalan fərqli bir tarixdir. Prezident İlham Əliyev cənablarının 29 sentyabr 2022-ci il tarixində "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli» elan edilməsi haqqında" imzaladığı Sərəncam bir daha xalqımızın öz liderinə olan məhəbbətinin təzahürüdür. Sərəncamda deyilir: "Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir.*

# Qayıdışdan Qurtuluşa – tərəqqi yolunun başlanğıcı!



3

**"Səs" Media Qrup "Xatirə Kuboku"nun qaliblərini mükafatlandırıb**



7

**Ölkəmizdə taksi qiymətləri hansı durumdadır?**




5

**Uşaqpulu verilə bilərmi?**



14

**NED-in məqsədi nədir?**



14

**Mixail Belyayev: "Zəngəzur dəhlizinin açılması məcburi tələbdir"**



15



**Ronaldo anons etdi: ulduzlar Ərəbistana axın edəcək**

16



# Qardaşlıq və dostluq işinə böyük töhfə!

*Prezident İlham Əliyev Türkiyənin Ədalət və İnkişaf Partiyası sədrinin birinci müavini Binəli Yıldırımı qəbul edib*

**Prezident İlham Əliyev iyunun 14-də Türkiyənin Ədalət və İnkişaf Partiyası sədrinin birinci müavini Binəli Yıldırımı qəbul edib. Dövlətimizin başçısı Türkiyədə keçirilən seçkilərdə Rəcəb Tayyib Ərdoğanın, həmçinin Cümhur İttifaqının qələbəsi münasibətilə bir daha təbriklərini çatdırdı.**

Görüşdə Rəcəb Tayyib Ərdoğanın Türkiyə Prezidenti seçildikdən sonra ilk səfərini Azərbaycana etməsinin və bunun dövlət səfəri statusunda həyata keçirilməsinin önəmi vurğulandı, həmişə olduğu kimi, bu səfərin də çox səmərəli keçdiyi bildirildi. Qeyd edildi ki, səfər zamanı dövlət başçıları tərəfindən Azərbaycan-Türkiyə müttəfiqliyinin müxtəlif sahələr və istiqamətlər üzrə inkişafına dair aidiyyəti nazirliklərə işlərin ardıcıl surətdə aparılması ilə bağlı tapşırıqlar verilib. Vurğulandı ki, Türkiyənin dövlət başçısının bu səfəri ölkələrimiz arasında bütün sahələrdə qardaşlıq və dostluq əlaqələrinin möhkəmlənməsi işinə böyük töhfə verəcək.

Söhbət zamanı Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın daha da genişlənməsinin əhəmiyyətinə toxunuldu, Binəli Yıldırımın Ağsaqqallar Şurasının sədri kimi təşkilat çərçivəsində fəaliyyəti vurğulandı. Görüşdə Azərbaycanın işğaldan azad edilmiş ərazilərində Türkiyə şirkətlərinin fəaliyyəti qeyd edildi.

Təbriklərə görə minnətdarlığını bildirən Binəli Yıldırım Prezident Rəcəb Tayyib Ərdoğanın ölkəmizə dövlət səfərinin uğurlu olduğunu qeyd etdi. Binəli Yıldırım Azərbaycanda olduğu müddətdə nümayəndə heyəti ilə birlikdə Şuşaya gedəcəyini və orada aparılan genişmiqyaslı tikinti-quruculuq işləri ilə yerində tanış olacağını bildirdi. O, Ağsaqqallar Şurasının sədri kimi Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın daha da genişlənməsinə öz töhfəsini verəcəyini vurğuladı.

Söhbət zamanı Yeni Azərbaycan Partiyası ilə Ədalət və İnkişaf Partiyası arasında uzun illər uğurlu əməkdaşlığın həyata keçirildiyi məmnunluqla qeyd edildi.

# Türkiyə Prezidentinin Bakıya səfəri Rumıniya mətbuatı tərəfindən geniş işıqlandırılıb

***Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Bakıya səfəri və Azərbaycan Prezidenti İlham Əliyevlə görüşü, dövlət başçılarının mətbuata açıqlamaları Rumıniya KİV-lərinin diqqət mərkəzində olub. Belə ki, ölkənin nüfuzlu "Digi24" televiziya kanalı və internet portalı, "Adevarul" nəşri, "Evenimentul Zilei" qəzetində səfərlə bağlı silsilə materiallar dərc olunub.***







Rumın dilində yayılan məlumatlarda iki ölkə qarşısında duran vəzifələr və əldə olunacaq uğurlar, xüsusən də Azərbaycan qazının nəqli, Zəngəzur dəhlizi, Şuşada Türkiyə Respublikasının konsulluğunun açılacağı barədə dövlət başçılarının fikirləri geniş yer alıb.




# Milli Məclisdə Ulu Öndərlə bağlı kitabın və filmin təqdimatı olub



İyunun 14-də Milli Məclisin xüsusi iclasında 3 cilddən ibarət "Heydər Əliyev və Azərbaycan parlamenti" kitabının və "Heydər Əliyev - Zamanın fövqündə" filminin təqdimatı olub. AZƏRTAC xəbər verir ki, "Heydər Əliyev və Azərbaycan parlamenti" kitabı Ulu Öndərin 100 illik yubileyi və Milli Qurtuluşumuzun 30 illiyi münasibətilə nəşr olunub.

Kitabın məsul redaktoru Milli Məclisin sədri Sahibə Qafarova, tərtibçi redaktoru isə parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Mehman Qaibovdur. Kitabda Ulu Öndər Heydər Əliyevin Azərbaycan parlamentinə rəhbərlik etdiyi 4 ay ərzində keçirilmiş parlament iclaslarının stenoqramları nəşr olunub. Bu stenoqramlar 30 ildə ilk dəfədir ki, geniş ictimaiyyətə təqdim olunur. Kitabda Ulu Öndərin müstəqilliyimiz, demokratiya, parlament mədəniyyəti və parlament diplomatiyası, ordu quruculuğu, neft strategiyası ilə bağlı çox dəyərli fikirləri və separatizmə qarşı mübarizəsi öz əksini tapıb. Ümummilli Liderin Azərbaycanın gələcəyi ilə bağlı parlament tribunasından səsləndirdiyi konseptual xarakterli fikirlər də əks olunub.




Təqdimatı keçirilən, görkəmli dövlət xadimi Heydər Əliyevin siyasi fəaliyyətindən bəhs edən "Heydər Əliyev - Zamanın fövqündə" filminin ideya müəllifi Milli Məclisin sədri Sahibə Qafarova, ssenari müəllifi isə Mehman Qaibovdur. Film Milli Məclisin arxiv materialları əsasında parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsində hazırlanıb.

Filmdə əsasən Heydər Əliyev və Azərbaycan parlamenti münasibətlərindən bəhs edir. Ulu Öndərin Azərbaycana ilk dəfə rəhbərlik etdiyi dövrdə Ali Sovetin deputatı, SSRİ Ali Sovetinin deputatı kimi fəaliyyəti, bu dövrdə onun təşəbbüsü ilə Azərbaycanın gələcəyi naminə parlamentdə görülmüş işlərdən, o cümlədən yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra 3 ay 18 gün ərzində müstəqilliyin ilk illərində Azərbaycan parlamentinə rəhbərlik etdiyi dövrdən bəhs edilir. Filmdə Ulu Öndərin Ali Sovetin tribunasından səsləndirdiyi bir sıra fikirləri ilk dəfə nümayiş olunur. Onun parlamentə sədrlik etdiyi dövrdə müstəqilliyimizin gücləndirilməsi, ordu quruculuğu, neft strategiyası, demokratiyanın inkişafı sahəsində atdığı addımlar geniş əks olunub. Filmdə, həmçinin yüksək səviyyəli prezident-parlament münasibətlərindən və Heydər Əliyev siyasətinin təntənəsindən bəhs olunur.



# Qayıdışdan Qurtuluşa – tərəqqi yolunun başlanğıcı!

## Bu gün 15 İyun – Milli Qurtuluş Günüdür

***Bu gün xalqımız böyük sevinc və qürurla müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi ümummilli liderimiz Heydər Əliyevin 100 illiyini qeyd edirik. Bu yubiley ili daha yaddaqalan fərqli bir tarixdir. Prezident İlham Əliyev cənablarının 29 sentyabr 2022-ci il tarixində "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli» elan edilməsi haqqında" imzaladığı Sərəncam bir daha xalqımızın öz liderinə olan məhəbbətinin təzahürüdür. Sərəncamda deyilir: "Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir".***

Bəli, Ulu Öndərimizin müəyyənləşdirdiyi siyasət daim ölkəmizə və xalqımıza işıqlı yol göstərir və zaman ötdükcə Onun Azərbaycanın inkişafı naminə gördüyü işlərin miqyası daha dərindən dərk olunur.

"Heç bir millət şəxsiyyətsiz yaşaya bilməz". Bu fikir Azərbaycan adını öndə gedən dünya ölkələri sırasına yazan, öz uzaqgörənliyi ilə dünya siyasətçilərini daim heyrətə gətirməyi bacaran, millətin hər bir nümayəndəsini ürəkdən sevən dahi şəxsiyyət, ulu öndər Heydər Əliyevə məxsusdur! Əslində doğru deyiblər ki, zaman hər şeyi yerbəyer edir, hər şeyin, hər kəsin doğru qiymətini verir. İllər keçdikcə, Ümummilli Liderimiz Heydər Əliyevin böyüklüyünü, müdrikliyini, xalqını, vətənini necə bir məhəbbətlə sevdiyini daha çox anlayırıq. Bu siyasət nəhənginin fəaliyyəti bütün bəşəriyyətin xoşbəxt gələcəyi uğrunda mübarizəyə həsr olunmuşdur. Belə ki, tarixin xalqımıza bəxş etdiyi dahi şəxsiyyətin, müasir Azərbaycanın xilaskarı və memarı, Ulu Öndəri Heydər Əliyevin bütün fəaliyyətinin məqsədi Azərbaycanı güclü, demokratik dövlətə çevirmək və xalqına firavan həyat bəxş etmək idi. Azərbaycanın ən yeni tarixinin bütöv bir dövrü onun şərəfli adı və möhtəşəm fəaliyyəti ilə bağlıdır. Onun Azərbaycana otuz ildən çox rəhbərliyi dövründə ölkəmiz bütün sahələrdə böyük inkişaf yolu keçib.

### HEYDƏR ƏLİYEV EPOXASI DÖVRÜ - 1969-1982 VƏ 1993-2003-CÜ İLLƏR

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ölkəmizin tarixində öz epoxasını yaratmış qüdrətli tarixi şəxsiyyətdir. Azərbaycan Respublikasına rəhbərlik etdiyi 1969-1982 və 1993-2003-cü illər çoxəsrlik Azərbaycan tarixinin Heydər Əliyev epoxası dövrüdür.

Birinci mərhələni əhatə edən 1969-1982-ci illər Azərbaycan tarixinin qızıl dövrü hesab edilir. Bu tarixi mərhələdə Azərbaycan keçmiş Sovetlər İttifaqında geridə qalmış bir respublikadan inkişaf etmiş ölkə səviyyəsinə yüksəldilmişdir. Bir vaxtlar sovetlər birliyində ən geridə qalan respublika kimi tanınan Azərbaycan Ulu Öndərin rəhbərliyindən sonra keçmiş SSRİ-də qabaqcıllar sırasına qoşuldu. Sonradan Kremldə fəaliyyət göstərdiyi illərdə - 1982-1987-ci illərdə Siyasi Büronun üzvü olmaqla SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsinə yüksələndə də qəlbi daim xalqımızla birgə döyünmüşdür. O dövrdə ölkənin ən mühüm sahələrinə rəhbərlik məhz Ulu Öndərimizə etibar edilmişdir. Həmin dövrdə də Azərbaycanın inkişafını, ələqələrinin möhkəmləndirilməsini, ərazi bütövlüyünün təmin olunmasını, milli kadrların yetişdirilməsini daim diqqət mərkəzində saxlayırdı.

Ulu Öndər təkcə həmin dövrdə deyil, bütün həyatı boyu Azərbaycanın və onun xalqının rifahını düşünərək bu ali amal uğrunda yorulmaz fəaliyyət göstərib, ömrünü bu yolda fəda etdiyi üçün yaddaşlarda əbədiyaşarlıq qazanıb. O, hələ sağlığında hər bir azərbaycanlının qəlbində əbədi heykəlini qoymuşdu. Məhz ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə xalqımız tarixin ən sərt və çətin sınaqlarından alnıaçıq, üzüağ çıxıb, müstəqil dövlətdə yaşamaq və özünü idarə etmək haqqını qorumağı bacarıb. 1987-ci il oktyabr plenumunda Heydər Əliyev SSRİ-nin ovaxtkı rəhbəri Mixail Qorbaçovun millətlər arasında ədavət toxumu səpməsinə, ayrı-seçkilik etməsinə, ümumiyyətlə, siyasi xəttinə etiraz əlaməti olaraq Siyasi Büronun üzvlüyündən və SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsindən istefa verdi. Bundan istifadə edən ermənilər öz havadarlarının köməyi ilə Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağa və ölkəmizə qarşı ərazi iddialarını açıq şəkildə həyata keçirməyə başladılar. "Torpaqdan pay olmaz" deyərək ayağa qalxan və kükrəyən xalqımızın haqq səsi Kremli silkələdi. Əlləri digər xalqların qanına batmış keçmiş SSRİ-nin sabiq rəhbəri Mixail Qorbaçov xalqın azadlıq, suverenlik arzusunu təpədən dırnağa qədər silahlanmış qanlı ordu ilə susdurmağa çalışdı. Ancaq buna nail ola bilmədi.

Sovet rəhbərliyinin 1990-cı ilin yanvarında xalqımıza qarşı qanlı faciəni törətdiyi ən ağır vaxtda Moskvada yaşayan Heydər Əliyev həyatını təhlükə qarşısında qoyaraq, qanlı faciəsinin baş verdiyi günün ertəsi - 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək siyasi bəyanatla çıxış etdi. Ulu Öndər 20 Yanvar faciəsinə etirazını bildirməklə sovet rəhbərliyinin cinayətkar əməllərini ifşa etdi.

Məhz bu qeyri-adi xüsusiyyəti sayəsində ulu öndər həm də idarəçilikdə böyük uğurlara imza atmış, cəmiyyətin həlledici toplumunu arxasınca apara bilmişdir. Heydər Əliyevin Liderlik keyfiyyətləri, siyasi prosesləri yönəltmək məharəti, cəmiyyətin maraq və mənafelərini ümumi bir nöqtədə birləşdirmək bacarığı Azərbaycan xalqının bu dahi şəxsiyyətə sonsuz etimadının əsas səbəblərindəndir. Azərbaycan neft ölkəsi olmasına baxmayaraq XX əsrin 60-cı illərində sovetlər ittifaqının geridə qalmış respublikalarından biri idi. Heydər Əliyev məhz belə bir vaxtda - 1969-cu il iyul ayının 14-də Azərbaycanda siyasi hakimiyyətə gəldi. Bundan əvvəl isə Heydər Əliyev Azərbaycanda dövlət təhlükəsizliyi sistemində rəhbər vəzifədə çalışmışdı. Böyük Öndər hələ bu orqanda fəaliyyəti dövründə Azərbaycan xalqı üçün əvəzolunmaz işlər görmüşdü. Respublikaya rəhbərliyə gəldikdən sonra isə Heydər Əliyev qısa bir zaman ərzində Azərbaycanın ictimai və siyasi həyatında böyük və əhəmiyyətli dəyişikliklər edə bildi. Ona görə Heydər Əliyev 1982-ci ildə sovetlər ittifaqında ali rəhbər vəzifəyə getdiyi zaman Azərbaycan artıq inkişaf etmiş sənaye respublikası kimi tanınırdı. O illərdə respublikada çoxlu sayda sənaye müəssisələri yaradılmış, Azərbaycanın ittifaq miqyasında əhəmiyyəti artmış, o cümlədən neft sənayesinin ayrı-ayrı sahələri yenidən qurulmuşdu. Heydər Əliyevin 1969-1982-ci illərdə Azərbaycanda rəhbər olduğu dövrdə yaratdığı sosial-iqtisadi, siyasi, mənəvi, psixoloji baza sonrakı dövrdə - müstəqillik illərində Azərbaycan xalqı üçün çox böyük əhəmiyyət kəsb etdi. SSRİ-nin dağılması ərəfəsində 15 müttəfiq respublikadan yalnız 3-ü - Rusiya, Ukrayna və Azərbaycan öz daxili imkanları hesabına iqtisadi problemlərini həll etməyə qadir idi. Sovet ittifaqının dağılması ərəfəsində mətbuatda dərc olunan təhlili materiallarda "Hansı müttəfiq respublika sovetlər ittifaqından ayrılaraq iqtisadi cəhətdən yaşamağa qadirdir" - sualına cavab axtarılarkən onların sırasında Azərbaycanın adı birinci yerdə çəkilirdi. Azərbaycanın dövlət müstəqilliyinin bərpası ərəfəsində gedən prosesdə Heydər Əliyev tarixi şəxsiyyət, lider olaraq Azərbaycan xalqının taleyinə təsir göstərən əhəmiyyətli addımlar atdı. 1990-cı ilin yanvarında sovet qoşunları Bakıya hərbi müdaxilə edərək qanlı hadisələr törətdilər, yüzdən artıq vətəndaşımız qətlə yetirildi. Azərbaycan xalqının öz ərazi bütövlüyünü qorumaq uğrunda apardığı mübarizə qan içərisində boğuldu. Bu haqsızlığa qarşı Azərbaycan xalqı qəti etirazını bildirirdi. Heydər Əliyevin 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı nümayəndəliyinə gəlməsi və oradan xalqa səslənməsi, bu faciəni törədənləri kəskin ittiham etməsi tarixi prosesə, tarixi hadisələrə ciddi təsir göstərən addım idi. Məhz bu hadisədən sonra Azərbaycanda xalq hərəkatı milli azadlıq hərəkatına çevrildi. Əgər 1987-ci ildə Azərbaycan xalqı ərazi bütövlüyü və Qarabağın qorunması uğrunda mübarizəyə qalxmışdısa, 1990-cı ilin yanvarından sonra gedən mübarizə artıq müstəqillik, azadlıq, suverenlik, istiqlal uğrunda mübarizə idi. Heydər Əliyevin məhz həmin çıxışı, çağırışı Azərbaycanın siyasi həyatında böyük dəyişiklik məqamı oldu və milli azadlıq, istiqlal uğrunda mübarizə başlandı. Bu mübarizə 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyinin bərpası ilə yekunlaşdı.

### 15 İYUN, 1993-CÜ İL - BÖYÜK XİLASKARLIQ QAYIDIŞI

XX əsrin sonlarında yenidən müstəqillik qazanmaq kimi tarixi fürsəti əldə edən Azərbaycan qısa vaxtdan sonra onun itirilməsi təhlükəsi ilə üzləşdi. Ölkədə hakimiyyət böhranı 1993-cü ilin iyununda kulminasiya həddinə çatdı, xaos və anarxiya respublikanı bürüdü. Vətəndaş müharibəsi dərəcəsinə yüksəlmiş qarşıdurma nəinki dövlət müstəqilliyimizi, hətta milli varlığımızı belə birbaşa hədəfə aldı. Beləliklə, 1991-1993-cü illər ölkəmizin müasir tarixində hərc-mərclik, özbaşınalıq, avantürist eksperimentlər dövrü kimi xatırlanır. Bütün bunlar isə həmin dövrdə yeni yaradılmış müstəqil dövlətə liderlik xüsusiyyətlərinə malik olmayan, siyasi hadisələrə qiymət verməK, gələcəyi görmək imkanlarından məhrum olan, adi vəziyyətdən belə çıxış yolu tapmağa qadir olmayan şəxslərin rəhbərlik etməsinə görə baş verirdi. Hadisələri düzgün qiymətləndirə bilməyən ovaxtkı iqtidar əhali arasında gündən-günə nüfuzunu itirir, baş vermiş proseslərdən düzgün nəticə çıxara bilmirdi.

Ümummilli lider Heydər Əliyev müstəqilliyimizin həmin mərhələsini belə xarakterizə edirdi: "Azərbaycan böyük təhlükə qarşısında idi.

Ardı Səh. 4

# Qayıdışdan Qurtuluşa – tərəqqi yolunun başlanğıcı!

Əvvəli-Səh-3

Çünki Azərbaycanın müstəqil yaşamasının əleyhinə olan həm daxildəki qüvvələr güclü idi, həm də Azərbaycan kimi böyük coğrafi-strateji əhəmiyyətə, zəngin təbii sərvətlərə malik olan ölkənin tam müstəqil olması başqa ölkələrdə bəzi dairələri qane etmirdi. Ermənistanın Azərbaycana etdiyi təcavüz və bunun nəticəsində Azərbaycanın zəifləməsi, məğlubiyyətə uğraması, ikinci tərəfdən də daxildə hakimiyyət çəkişməsi 1992-ci ilin iyun ayında hakimiyyətə gəlmiş qüvvələri bir ildən sonra hakimiyyətdən saldı, xalq özü saldı".

Azərbaycan torpaqlarının Ermənistan silahlı qüvvələri tərəfindən davamlı işğalı, getdikcə gərginləşən siyasi vəziyyət, əhalinin gündən-günə ağırlaşan sosial durumu ölkəni bu bəlalardan xilas edə biləcək, xalqı öz arxasınca aparmağa qadir liderə ehtiyac olduğunu şərtləndirirdi. Cəmiyyətin bütün təbəqələri əmin idi ki, müstəqilliyini yenicə bərpa etmiş ölkəni düşdüyü ağır və dözülməz vəziyyətdən çıxarmağa qadir yeganə şəxsiyyət məhz Heydər Əliyevdir.. Beləliklə, 1993-cü il iyunun 9-da ulu öndər Heydər Əliyev xalqın çağırışına səs verərək Bakıya qayıtdı və Azərbaycan Xalq Cümhuriyyətinin taleyindən daha dəhşətli hadisələrin gözlənildiyi ölkəmizi bəlalardan, müsibətlərdən xilas etdi. Həmin gün, sözün həqiqi mənasında, ölkəmizin taleyində dönüş anı oldu, böyük qurtuluşa doğru mühüm addım atıldı. Xalqımızı nicata aparan yol bilavasitə həmin gündən başlandı.1993-cü ildən ömrünün sonuna qədər, yəni, 2003-cü ilədək ömrünü müstəqilliyimizin əbədiliyinə, öz xalqının və Vətəninin inkişafına sərf edən Ulu Öndər Azərbaycanı dünyaya tanıtdırdı. Xalqımızın xoşbəxt, firavan gələcəyi üçün etibarlı bünövrə yaradaraq, dövlət idarəçilik mexanizmini formalaşdırdı. Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynamaqla dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilmişdir. Müasir müstəqil Azərbaycan dövlətinin tərəqqisi Heydər Əliyev ideyalarının təntənəsidir

### "ƏSRİN MÜQAVİLƏSİ" - HEYDƏR ƏLİYEVİN TARİXİ SƏRVƏTLƏRİNƏ SAHİB ÇIXMASININ TƏSDİQİ

Ulu Öndər Heydər Əliyevin ən böyük xidmətlərindən biri də Azərbaycanın öz təbii sərvətlərinə sahib çıxması, dünyanın əsas neft-qaz ixracatçısına çevrilməsidir. Heydər Əliyevin bu istiqamətdə həyata keçirdiyi nəhəng siyasi layihələrdən biri neft strategiyasıdır. Neft strategiyası bu gün də Azərbaycan üçün həm siyasi, həm də iqtisadi dividendlər gətirməkdədir. Ulu Öndərin uzaqgörənliyi və qətiyyəti sayəsində 1994-cü il sentyabrın 20-də Bakıda müxtəlif ölkələrin neft şirkətləri ilə imzalanan "Əsrin müqaviləsi" Azərbaycanın yeni neft strategiyasının əsasını qoydu. Bu neft strategiyası dünyanın ən qabaqcıl neft şirkətlərini Azərbaycana investisiya yatırmağa cəlb etdi. Bu investisiyalar iqtisadi sabitliyin bərqərar olması üçün böyük rol oynadı. Azərbaycanın beynəlxalq nüfuzu artdı, bölgədə rolu genişləndi. O cümlədən iqtisadi islahatlar aparılması üçün böyük baza yaradıldı, sosial islahatlar üçün iqtisadi potensial əldə edildi.

Heydər Əliyevin həyata keçirdiyi nəhəng geopolitik layihələr sırasında Bakı-Tbilisi-Ceyhan neft kəməri layihəsi bu gün həm Azərbaycan, həm də region üçün böyük rol oynayır. Bütün iqtisadi təhlilçilərin və tədqiqatçıların fikri ondan ibarətdir ki, belə nəhəng layihənin həssas bir bölgədə, geopolitik baxımdan dartışmalar mərkəzi olan Cənubi Qafqazda həyata keçirilməsi yalnız böyük şəxsiyyətin - Heydər Əliyevin uzaqgörənliyi ilə reallaşa bilərdi.

Enerji təhlükəsizliyi bütün dünya dövlətlərini düşündürən ən vacib məsələlərdən biridir. Ona görə də Azərbaycanın, o cümlədən Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarlarına çıxarılmasına əngəl olmaq istəyən qüvvələr var idi. Onların manelərinə baxmayaraq Heydər Əliyev BTC neft kəmərinin, sonra isə Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin reallaşması üçün böyük siyasət həyata keçirdi. Bu layihələrin reallaşması Heydər Əliyevin uğuru, onun böyük şəxsiyyət olaraq tarixi prosesə göstərdiyi təsirlərin nəticəsi idi. Azərbaycan Respublikası Konstitusiyasının 11-ci maddəsinin I hissəsində göstərilir ki, Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir. Həmin maddənin II hissəsində isə göstərilir ki, Azərbaycan Respublikasının daxili suları, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan sektoru, Azərbaycan Respublikasının üzərindəki hava məkanı Azərbaycan Respublikası ərazisinin tərkib hissəsidir. Azərbaycan Respublikası öz ərazisinin heç bir hissəsini heç bir şəkildə kimsəyə vermir; yalnız Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə Azərbaycanın bütün əhalisi arasında referendum keçirmək yolu ilə Azərbaycan xalqının iradəsi əsasında dövlət sərhədləri dəyişdirilə bilər. Həmçinin, Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin 2-ci maddəsinin 4-cü hissəsinə əsasən, bütün üzv dövlətlər öz beynəlxalq münasibətlərində, hər hansı bir dövlətin ərazi bütövlüyünə və siyasi müstəqilliyinə qarşı və yaxud Birləşmiş Millətlər Təşkilatının məqsədləri ilə bir araya sığmayan hər hansı bir şəkildə güclə hədələməkdən və gücün tətbiqindən çəkinirlər. Beləliklə, dövlətlərin ərazi bütövlüyünün toxunulmazlığı prinsipi beynəlxalq hüququn bir prinsipi kimi qəbul edilmişdir. Ümummilli Lider Heydər Əliyev bununla bağlı demişdir: " Hər bir ölkənin ərazi bütövlüyü, sərhədlərinin pozulmazlığı Birləşmiş Millətlər Təşkilatının sənədlərində təsbit edilmiş beynəlxalq hüququn sarsılmaz prinsipidir".

Ulu Öndər Heydər Əliyev istər istər dövlət başçıları, istərsə də xarici ölkələrdə olan Azərbaycan diasporunun nümayəndələri, iş adamları, qeyri-hökumət təşkilatlarının nümayəndələri ilə görüşlərində Dağlıq Qarabağın Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olması fikrini əsaslandırmış və buna da nail olmuşdur.

***Enerji təhlükəsizliyi bütün dünya dövlətlərini düşündürən ən vacib məsələlərdən biridir. Ona görə də Azərbaycanın, o cümlədən Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarlarına çıxarılmasına əngəl olmaq istəyən qüvvələr var idi. Onların manelərinə baxmayaraq Heydər Əliyev BTC neft kəmərinin, sonra isə Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin reallaşması üçün böyük siyasət həyata keçirdi.***

### BUGÜNKÜ AZƏRBAYCAN HEYDƏR ƏLİYEVİN GÖRMƏK İSTƏDİYİ AZƏRBAYCANDIR

Ötən illər ərzində Azərbaycan böyük inkişaf yolu keçib. Ölkəmizin inkişaf strategiyası məhz ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilib. Azərbaycanda Heydər Əliyev siyasətinin alternativi yoxdur. Bugünkü Azərbaycan Heydər Əliyevin görmək istədiyi Azərbaycandır. Qazanılan bütün nailiyyətlərin əsasında Ümummilli Lider tərəfindən müəyyənləşdirilən siyasi kurs və Prezident İlham Əliyevin bu siyasi kursu uğurla davam etdirməsi faktı dayanır. Bu günün fövqündən baxanda Azərbaycanın gələcəyi daha işıqlı və firavan görünür. Çünki müstəqil Azərbaycanın idarəçilik sükanı ulu öndər Heydər Əliyevin siyasi varisi Prezident İlham Əliyevin əlindədir.

Dahi şəxsiyyətin bu günümüz və gələcəyimiz üçün səsləndirdiyi fikirlərə, tezislərə diqqət yetirdikdə onun torpaq, Vətən sevgisinin nə qədər böyük olduğunu görürük. Ulu Öndərin suverenliyimizi daimi yaşatmaq, dövlət müstəqilliyimizi əbədi etmək üçün harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlıya müqəddəs Azərbaycan qayəsi ətrafında əməl və əqidə birliyinə, sarsılmaz həmrəyliyə çağırışlar etməsi də bu sevgisindən qaynaqlanırdı. O, müstəqillik yollarında ilk addımlarını atan dövlətin qarşısında dayanan vəzifələrdən bəhs edərkən bildirirdi ki, onun beynəlxalq aləmdə özünü təsdiqləməsi üçün xarici əlaqələrimizi gücləndirməyə böyük ehtiyac var. Bu fakt da inkaredilməzdir ki, Azərbaycanın müstəqilliyinin yenidən bərpasının ilk illərində informasiya blokadasında olmasının əsas səbəbi ölkəmiz haqqında məlumatsızlıq idi. Erməni yalanları Azərbaycan haqqında məlumatsızlıq fonunda ayaq tutub yeriyir, ermənilər xislətlərinə, yalan təbliğatlarına uyğun olaraq özlərini beynəlxalq ictimaiyyətə "əzilən, döyülən, məzlum" xalq, millət kimi qəbul etdirməyə çalışırdılar. Torpaqları işğal edilən, bir milyondan artıq soydaşı qaçqın və məcburi köçkün vəziyyətində yaşayan Azərbaycan olduğu halda əksər dünya gücləri Ermənistanı işğala məruz qalan, Azərbaycanı isə işğalçı tərəf kimi qəbul edirdilər. 1992-ci ildə erməni diasporunun təşəbbüsü ilə ABŞ Konqresi tərəfindən ölkəmizə qarşı "Azadlığı Müdafiə Aktına" ədalətsiz 907-ci düzəlişin əlavə edilməsi də bunun bariz nümunəsi idi. Ermənilərin və erməni lobbisinin məqsədi bu qərarın qəbulu ilə Azərbaycanı iqtisadi cəhətdən zəiflətmək və asılı vəziyyətə salmaq idi. Amma hadisələrin təhlili də göstərdi ki, Azərbaycan 10 ilə yaxın bu ədalətsiz qərarın tətbiqi şəraitində yaşasa da nəinki iqtisadi cəhətdən zəifləmədi, əksinə ulu öndər Heydər Əliyevin düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində daha qüdrətli, zəngin dövlətə çevrildi. Bu proseslər, eyni zamanda, hər bir ölkənin həyatında Lider amilinin roluna işıq salır. Bu ədalətsiz qərarın hansı dövlətlərə tətbiq edildiyi məlumdur. Ulu öndər Heydər Əliyev hakimiyyətə qayıtdığı ilk gündən əsas fəaliyyət istiqamətlərindən biri Azərbaycanın ətrafında yaradılan informasiya blokadasının yarılması oldu. Ümummilli Liderin elə bir xarici ölkəyə səfəri yox idi ki, bu gün artıq tarixə qovuşan "Dağlıq Qarabağ" münaqişəsindən bəhs olunmasın, erməni yalanları faktlar əsasında dünya ictimaiyyətinə çatdırılmasın. Diplomatik uğurlarımızın nəticəsində dünya siyasətində dəyişikliklər baş verməyə başladı.

### ATA VƏSİYYƏTİ – OĞUL HESABATI

Bütün mənalı həyatını ölkəmizin tərəqqisinə, insanların rifahının yaxşılaşdırılmasına həsr edən Ümummilli Liderimizin ən böyük arzusu işğal olunmuş torpaqlarımızın azad edilməsi idi. O, bunun üçün var qüvvəsi ilə çalışırdı. Doğma ocaqlarından didərgin düşmüş qaçqın və məcburi köçkünlərin bütün problemlərinin həll olunması üçün bütün imkanları səfərbər etmişdir. Və onun ən böyük xidmətlərindən biri də 1994-cü ildə atəşkəslə bağlı sənədin imzalanması olmuşdur. Ölkədə cənab İlham Əliyev tərəfindən aparılan islahatlar və quruculuq işləri, xüsusilə də son 19 ildə həyata keçirilən güclü dövlət, güclü ordu strategiyası, çox vektorlu siyasi münasibətlər, regional və beynəlxalq əhəmiyyətli layihələr torpaqlarımızın işğaldan azad olmasının səbəbidir.

Bəli, bu gün Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyünün bərpasına nail oldu. Böyük Öndər Heydər Əliyev demişdir: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə ümidlər bəsləyirəm".

Ümummilli lider Heydər Əliyevin müdrik, uzaqgörən və çevik daxili və xarici siyasətini özünün siyasi kursu elan etmiş, Heydər Əliyev idarəçilik məktəbinin layiqli davamçısı hesab edilən İlham Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində Ali Baş Komandanımız, Prezident İlham Əliyev cənablarının dediyi kimi: "Dərsini verdik. Öz bayrağımızı ucaltdıq Şuşada və bütün başqa şəhər və rayonlarımızda. Hər kəs gücümüzü gördü. Hər kəs qüdrətimizi gördü, iradəmizi gördü. Bu dəmir yumruq onların belini qırdı, onların başını əzdi. Bu, birlik yumruğudur, bu, güc yumruğudur. Bundan sonra Azərbaycan yalnız inkişaf, tərəqqi yolu ilə gedəcək. Bundan sonra da biz ordu quruculuğu işində əməli addımlar atacağıq, ordumuzu daha da gücləndirəcəyik. Bütün göstərişlər verildi. İradəmiz də var, təcrübəmiz də var - əvəzolunmaz təcrübə. İndi bütün ölkələr bu Vətən müharibəsinin təcrübəsini öyrənirlər. Vəsaitimiz də var. Xalq-iqtidar birliyimiz də var. Biz göstərmişik ki, böyük xalqıq, qürurlu xalqıq. Düşməni yerə vurduq. Düşmənin belini qırdıq, məhv etdik. Bu, tarixi Qələbədir. Bu Qələbə Azərbaycan tarixində əbədi qalacaq, şanlı Qələbə kimi!".

Bəli, ruhun şad olsun ulu öndər, Qarabağ Azərbaycandır! Azərbaycan xalqının Qalib Lideri, Azərbaycan xalqının Prezidenti İlham Əliyev dəmir siyasətinin nəticəsində "Dağlıq Qarabağ" problemi yoxdur!. Prezident İlham Əliyev bildirib ki, biz döyüş meydanında, siyasi müstəvidə Qələbə qazanmışıq və bu Qələbə ölkəmiz üçün yeni dövr açır. Bu dövr inkişaf, təhlükəsizlik, tərəqqi dövrü olacaqdır: "Bu dövrlə bağlı müraciətlərimi yenə də hər bir Azərbaycan vətəndaşının arzuladığı sözlərlə yekunlaşdırmaq istəyirəm: Cəbrayıl bizimdir, Füzuli bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Kəlbəcər bizimdir, Laçın bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!".

Ona görə də Ulu Öndərin fiziki yoxluğu dövründə ölkəsini, millətini düşünüb, müstəqilliyimizin əbədi olması uğrunda qətiyyətlə mübarizə apara biləcək yeganə Lider Prezident İlham Əliyev cənablarıdır. Bütün bunlar isə Heydər Əliyev uzaqgörənliyinin, Heydər Əliyev zəkasının və Heydər Əliyev nurunun bizə tərəf saçılan əbədi şöləleridir!

**RƏFİQƏ KAMALQIZI**

# Xalqımızı xilasa və tərəqqiyə aparan yol



**Vüqar Rəhimzadə,
Yeni Azərbaycan Partiyası Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru**

*Dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə daim fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz, Ulu Öndər Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi tanınır*

### Müstəqilliyi əldə etmək nə qədər çətindirsə...

Müstəqil, azad yaşamaq, öz təbii sərvətlərinin əsl sahibinə çevrilmək əsrlər boyu Azərbaycan xalqının ən böyük arzusu olub. Azərbaycan 18 oktyabr 1991-ci ildə ötən əsrin 20-ci ilində itirdiyi dövlət müstəqilliyini yenidən bərpa etsə də, xalqımız bu sevinci yaşaya bilmədi. Müstəqilliyimizin bərpasının ilk illərində ölkəyə rəhbərlik edənlərin səriştəsizliyi, idarəçilik qabiliyyətlərinin yoxluğu, ayrı-ayrı siyasi qruplar arasında hakimiyyət uğrunda gedən amansız mübarizə müstəqil Azərbaycan dövləti, xalqı üçün heç də uğurlu gələcək vəd etmirdi. 1992-ci ildə hakimiyyəti zor gücünə ələ keçirən AXC-Müsavat cütlüyü bir illik iqtidarı dövründə ölkəmizi daha da ağır, çıxılmaz vəziyyətə saldı. AXC-Müsavat iqtidarının səriştəsizliyi, dövlət idarəçiliyi sisteminin olmaması, ölkədə fəaliyyət göstərən və ayrı-ayrı siyasi qruplaşmalara məxsus olan silahlı dəstələrin 1993-sü ilin əvvəllərindən başlayaraq törətdikləri cinayət əməlləri, ölkəmizin ayrı-ayrı bölgələrində separatçılıq və parçalanma meyillərinin baş qaldırması və sair kimi hadisələr respublika daxilində qardaş qırğınına, vətəndaş müharibəsinə zəmin yaratmış, Azərbaycanı bir dövlət kimi məhv olmaq təhlükəsi ilə üz-üzə qoymuşdu. Xüsusilə hakimiyyəti silah gücünə ələ keçirmiş və xalq arasında "ac bəylər" adlandırılan zümrə tərəfindən dövlət əmlakının amansızcasına talan edilməsi ölkəni acınacaqlı duruma salmışdı. Bütün bunlarla yanaşı, dövlət idarəetməsində heç bir təcrübəsi olmayan təsadüfi şəxslərin vəzifəyə gətirilməsi suverenliyimizə ciddi təhdid yaratmışdı. Bir sözlə, ölkə təcrid olunmuş vəziyyətə gətirilmişdi. Torpaqlarımız bir-birinin ardınca işğal edilir, xalqın sabaha olan ümidləri tamamilə puça çıxırdı. Belə bir çıxılmaz durumda olan Azərbaycan müstəqilliyini itirmək, bir dövlət kimi dünya xəritəsindən silinmək təhlükəsini yaşayırdı. Vəziyyətin daha da ağırlaşacağından qorxuya düşən və heç bir əməli tədbir görməyi bacarmayan səbatsız AXC-Müsavat iqtidarının yüksək vəzifəli şəxsləri son nəticədə məsuliyyətdən yayınmaq üçün bir-birinin ardınca istefa verməyə, Ümummilli Lider Heydər Əliyevi hakimiyyətə dəvət etməyə məcbur oldular. Ulu Öndər onların bu təkliflərini qəbul etmir, vəziyyət isə getdikcə daha da pisləşirdi. Bu çətin məqamda Azərbaycan xalqı hamılıqla ayağa qalxdı, üzünü xilaskarına tutaraq böyük dövlətçilik təcrübəsi olan, dünya şöhrətli nüfuzlu siyasi xadim Heydər Əliyevi təkidlə ölkəni məhv olmaqdan xilas etmək üçün hakimiyyətə dəvət etdi. Xalq inanırdı ki, yalnız Ulu Öndər Heydər Əliyev bu vəziyyətdən çıxış yolu tapa və Azərbaycanın müstəqilliyini qoruyub saxlaya, inkişaf etdirə bilər. Beləliklə, 1993-cü il iyunun 9-da Ulu Öndər Heydər Əliyev xalqın təkidli çağırışına səs verərək Naxçıvandan Bakıya qayıtdı. Böyük xilaskar Heydər Əliyevin Bakıya qayıdışı ilə Azərbaycan müstəqil bir dövlət kimi məhv olub tarix səhnəsindən silinmək təhlükəsindən qurtuldu. Heç də təsadüfi deyil ki, 1993-cü ilin 9 iyunu müstəqillik tariximizə, dövlətçilik salnaməmizə qızıl hərflərlə yazılıb. Həmin gün, sözün həqiqi mənasında, ölkəmizin taleyində dönüş anı oldu, Böyük Qurtuluşa doğru mühüm addım atıldı. Bu qayıdış bütün mənalarda milli qurtuluşumuz idi. Ümummilli Lider Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildiyi 1993-cü il 15 iyun tarixinin Milli Qurtuluş Günü adlandırılması xalqımızın öz xilaskarına verdiyi tarixi qiymət, gələcəyini müəyyənləşdirmək baxımından qəbul etdiyi böyük tarixi qərar idi. Məhz bu səbəbdən də dövlət başçısı İlham Əliyev Milli Qurtuluş Gününü Azərbaycan tarixinin dönüş nöqtəsi kimi dəyərləndirir. 1997-ci ildən etibarən Azərbaycanda rəsmi olaraq dövlət bayramı kimi qeyd edilən bu tarix olduqca böyük əhəmiyyət daşıyır. Milli Qurtuluşumuz Azərbaycanın çoxəsrlik tarixinə sadalamaqla bitməyən zəngin səhifələr əlavə etdi. Bu gün həmin səhifələr tarixi Zəfərimizin reallıqları fonunda daha da zənginləşir, Azərbaycan xalqının yenilməzliyinin, məğrurluğunun dünyaya təqdimatında əhəmiyyətli rol oynayır.

### Müasir müstəqil Azərbaycan Ulu Öndərin həyat amalının təntənəsidir

Ümummilli Liderin tarixi missiyası üç mühüm amilə söykənirdi: xalqın Heydər Əliyevə olan möhkəm və sarsılmaz inamı, dəstəyi; Heydər Əliyev şəxsiyyətinin böyüklüyü, qüdrəti, əzəməti; Ulu Öndərin mənsub olduğu Azərbaycan xalqına, Vətəninə sonsuz və təmənnasız sevgisi. Məhz bu üç amilin vəhdəti sayəsində müstəqil Azərbaycanın bu günü və gələcəyi üçün möhkəm təməl formalaşdı. 1993-cü il iyunun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başlayan, 1993-cü il oktyabrın 3-də milyonların etimadı nəticəsində Azərbaycan Respublikasının Prezidenti seçilən Ulu Öndər Heydər Əliyev 10 oktyabr 1993-cü ildə keçirilən andiçmə mərasimində müstəqilliyimizin əbədiliyinin təmin edilməsi naminə qarşıda dayanan mühüm məsələlərin proqram tezislərini bəyan etdi. Məhz bu tarixi tezislər əsasında Ulu Öndər Heydər Əliyev çox qısa bir müddətdə özünün xilaskarlıq missiyasını xalqın dəstəyi sayəsində uğurla gerçəkləşdirdi, millətimizi, ilk kövrək addımlarını atan gənc dövlətimizi böyük bəlalardan xilas etdi. Eyni zamanda, Ümummilli Lider bu missiyası ilə dövlətimizin rəmzinə çevrildi ki, bu da tarixdə nadir hallarda rast gəlinən gerçəklikdir. Məhz bu əvəzsiz xidmətlərinə görə müasir müstəqil Azərbaycan dövlətçilik tarixi dedikdə, ilk olaraq gözlərimiz önündə bütün mənalı həyatını xalqımızın xoşbəxt həyat sürməsinə, dövlətimizin inkişafına və tərəqqisinə həsr etmiş Ulu Öndər Heydər Əliyevin nurlu siması canlanır. Ümummilli Lider dünya tarixində nadir şəxsiyyətlərdəndir ki, zəngin irsi hər zaman araşdırılır, öyrənilir, təbliğ olunur və gələcəkdə də belə olacaqdır. Bu mühüm məqamı da xüsusi qeyd etməliyik ki, dövlət başçısı İlham Əliyevin Sərəncamı ilə 2023-cü il ölkəmizdə "Heydər Əliyev İli" elan olundu. Bu tarixi addım dahi şəxsiyyətin Azərbaycan dövləti, xalqı qarşısındakı misilsiz xidmətlərinin təhlilinə böyük imkanlar yaradır. «Heydər Əliyev İli" çərçivəsində həm ölkəmizdə, həm də onun hüdudlarından kənarda keçirilən rəngarəng tədbirlərdə Ümummilli Liderin fəaliyyətinin ayrı-ayrı istiqamətləri geniş təhlil olunur, bunların fonunda Onun Vətəninə, xalqına, dövlətinə bağlılığı böyük qürur hissi ilə vurğulanır. "Mən ömrümün qalan hissəsini də xalqıma bağışlayıram!" söyləyərək Azərbaycanı böyük inkişaf, tərəqqi yoluna çıxaran Ulu Öndər Heydər Əliyev, eyni zamanda, "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!", "Vətən birdir, hamımız bu Vətən üçün çalışmalıyıq!" çağırışları ilə dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın birliyini, həmrəyliyini təmin etdi. Azərbaycançılıq ideologiyasının inkişaf etdirilməsi, təbliği Ümummilli Liderin hakimiyyətinin hər iki dövründə fəaliyyətinin əsasını təşkil edib. Ümummilli Lider Heydər Əliyevin müdrikliyi, siyasi uzaqgörənliyi, qətiyyəti və dövlətçilik bacarığı sayəsində Azərbaycan qısa müddət ərzində zamanın təlatümlərindən, sınaqlarından uğurla çıxaraq gələcəyə inamla baxan bir dövlətə çevrildi. Sabitliyi hər bir ölkənin inkişafının əsası kimi dəyərləndirən Ulu Öndərin düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində Azərbaycanda sabitlik təmin edildi. İqtisadi müstəqilliyi Azərbaycanın qüdrətlənməsi, ölkə əhalisinin sosial müdafiəsinin etibarlı təminatı üçün başlıca şərt kimi önə çəkən Ulu Öndər Heydər Əliyev iqtisadiyyatı bərbad hala salınan respublikanın sərbəst iqtisadiyyat sisteminə keçməsini, mövcud təbii resurslardan səmərəli istifadəni, önəmli islahatların tətbiqini çıxış yolu kimi dəyərləndirdi. 1994-cü il 12 may tarixində Ermənistanla atəşkəs sazişinin imzalanmasından sonra elə həmin ilin 20 sentyabr tarixində dünyanın nəhəng transmilli şirkətləri ilə "Əsrin müqaviləsi"nin imzalanması sayəsində neft strategiyasını müəyyənləşdirən, Azərbaycana investisiya axınını iqtisadi böhrandan çıxış yolu hesab edən Ulu Öndər Heydər Əliyev geosiyasi baxımdan əlverişli şəraitdə yerləşən respublikanın iqtisadi-sosial, elmi- texniki potensialını da hazırladığı neft strategiyasının həllinə yönəltdi. Ümummilli Lider dünya təcrübəsinə istinadən bildirirdi ki, heç bir ölkə təcrübə mübadiləsi aparılmadan, səylər birləşdirilmədən təkbaşına iqtisadi tərəqqiyə nail ola bilməz. "Əsrin müqaviləsi" Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi Ərzurum, Cənub Qaz Dəhlizi, eyni zamanda, "Yeni əsrin müqaviləsi" kimi unikal layihələrin reallaşmasına yol açdı. Bu gün enerji sahəsində əməkdaşlığın coğrafiyasının genişləndirilməsi Azərbaycanın etibarlı tərəfdaş kimi mövqeyinin möhkəmlənməsinin göstəricisidir. Əminliklə deyə bilərik ki, Azərbaycanın təşəbbüsü ilə reallaşan qlobal neft-qaz layihələri dünyanın enerji xəritəsini dəyişdirməyə imkan yaratdı. Ulu Öndər qarşıdakı dövrün hədəflərini açıqlayarkən bu məqamı da xüsusi qeyd etmişdir ki, Azərbaycanda demokratik, hüquqi dövlət qurulmalıdır. Azərbaycan demokratiya yolu ilə getməlidir. Azərbaycan Respublikasında siyasi plüralizm hökm sürməlidir. İnsan, söz, din, dil azadlığı - bunların hamısı bərqərar edilməlidir. İnsan hüquqlarının qorunması bizim əsas məqsədlərimizdən biri, dövlət orqanlarının, hüquq-mühafizə orqanlarının əsas vəzifələrindən biri olmalıdır. Dövlətin hüquqları da qorunmalıdır. Ümummilli Liderin demokratik cəmiyyətin varlığını təsdiqləyən bütün atributların bərqərar olması istiqamətində atdığı addımların uğurlu nəticəsi 2001-ci ildə Azərbaycanın dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı olan Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsi oldu.Ölkədə söz, mətbuat azadlığının təmin olunması, insan hüquqlarının qorunması, çoxpartiyalı sistemin yaradılması, plüralizmin təmin edilməsi, seçkilərin demokratik, beynəlxalq standartlara uyğun keçirilməsi üçün zəruri tədbirlərin görülməsi bir daha təsdiqlədi ki, Azərbaycanda demokratiya prinsiplərinə sadiqlik sözdə deyil, əməli işdə özünü təcəssüm etdirir. Milli Konstitusiyamızın bütün maddələrində insan amilinə diqqət, dövlətçiliyin möhkəmləndirilməsi üçün vətəndaşların üzərinə düşən vəzifələr tam aydınlığı ilə müəyyənləşdirildi. Şərqdə ilk dəfə olaraq Azərbaycanda ölüm hökmünün ləğv olunması, Amnistiya aktları və əfv sərəncamları ilə azadlıqdan məhrum edilmiş minlərlə məhbusun cəzasının çəkilməmiş hissəsindən azad olunması insan amilinə diqqətin nümunəsi kimi dəstəkləndi. Ulu Öndər Heydər Əliyevin Fərmanı əsasında senzuranın ləğvi sözün həqiqi mənasında azad, müstəqil mətbuatın formalaşmasında həlledici rol oynadı. 1998-ci ilin 6 avqustunda "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" Fərmanın imzalanması ilə ölkə mətbuatının inkişafında yeni bir mərhələnin başlanğıcı qoyuldu. Ümummilli Lider müstəqillik yolunda ilk addımlarını atan hər bir ölkənin qarşısında dayanan vəzifələri açıqlayarkən xarici siyasətin düzgün qurulmasını qarşıya mühüm vəzifə kimi qoyurdu. Onun düşünülmüş, çoxşaxəli xarici siyasət kursu Azərbaycan həqiqətlərinin, keçmiş Qarabağ münaqişəsinin əsl mahiyyətinin dünya ictimaiyyətinə çatdırılmasında əhəmiyyətli rol oynadı. Azərbaycanın ətrafında yaradılan informasiya blokadası yarıldı. Dahi şəxsiyyət, eyni zamanda, bu çağırışı da edirdi ki, sülh danışıqlarını cəsarətlə aparmaq üçün güclü ordu olmalıdır. Ölkəmizdə nizami ordu formalaşdı, Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində davamlı addımlar atıldı. Fərarilik hallarına son qoyuldu. Azərbaycan gənclərində formalaşdırılan vətənpərvərlik hissləri onların hərbi xidmətə böyük ruh yüksəkliyi ilə qatılmalarını şərtləndirdi.

### Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır

Dahi şəxsiyyətin xidmətlərinin miqyası o qədər genişdir ki, bütün bunları bir yazıda əhatə etmək mümkün deyil. Bir mühüm məqamı da xüsusi qeyd etməliyik ki, Azərbaycanın müasir siyasi sistemi məhz Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ölkənin sürətlə uçuruma yuvarlandığı bir şəraitdə- 1992- ci ildə 91 nəfər ziyalının xalqın böyük əksəriyyətinin istəyini özündə ifadə edən "Azərbaycan Sizin sözünüzü gözləyir" müraciəti tarixə mühüm hadisə kimi yazıldı. Ümummilli Lider "Yeni Azərbaycan uğrunda" cavabı ilə xalqla bir olduğunu növbəti dəfə nümayiş etdirdi, Azərbaycanın düşdüyü vəziyyətdən xilasında yaradılması nəzərdə tutulan Yeni Azərbaycan Partiyasının böyük rol oynacağına əminliyini ifadə etdi.

*Ardı Səh. 6*

# Xalqımızı xilasa və tərəqqiyə aparan yol

Əvvəli-Səh-5

Məhz bu əminlik, Yeni Azərbaycan Partiyasına dünənin, bu günün və gələcəyin partiyası kimi göstərilən böyük etimad indiki reallıqlarımıza yol açdı. 1992-ci ilin noyabrında Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis olunması və Ümummilli Liderin partiyaya Sədr seçilməsi faktiki olaraq Azərbaycanda müasir siyasi sistemin yaranmasına səbəb oldu. Çünki Yeni Azərbaycan Partiyası o vaxtkı antimilli iqtidara qarşı müxalifət kimi yaranmışdı. Partiya yarandığı gündən tutduğu yola sadiqliyi, söz ilə əməl birliyi sayəsində milyonların sevgisini qazandı, cəmiyyətin avanqard qüvvəsinə çevrildi. Dövlət başçısı, YAP Sədri İlham Əliyev keçilən yolun təhlili fonunda böyük əminliklə bildirir ki, YAP bundan sonra da ölkəmizdə gedən bütün proseslərin mərkəzində olacaq. YAP ənənələri olan partiyadır. Ümumiləşdirilmiş şəkildə qeyd etsək deməliyik ki, Ulu Öndər Heydər Əliyevin adı tariximizdə Vətənin və xalqın xilaskarı, müstəqilliyimizin memarı, yeni Azərbaycanın banisi kimi həkk olunub.

### Tarixi Qayıdışdan şanlı Zəfərə

Ulu Öndər Heydər Əliyevin ən böyük arzusu Azərbaycanı bütöv görmək idi. Ümummilli Lider məcburi köçkünlərlə görüşlərinin birində bildirmişdir: “Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya. Gedəcəyik, inanın ki, gedəcəyik. Şuşa Azərbaycanın gözüdür, hər bir azərbaycanlı üçün iftixar mənbəyidir. Şuşa bizim mədəniyyətimizin, tariximizin rəmzidir. Şuşa hamı üçün əzizdir. Amma təkcə Şuşa yox, Laçın dağları da əzizdir. Biz heç vaxt Laçınsız yaşaya bilmərik. Ağdam kimi gözəl bir şəhər, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcərin o bulaqları, Kəlbəcərin o İsti suyu - biz onlarsız yaşaya bilmərik.” Dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev Ümummilli Liderin bu istəyini, arzusunu reallığa çevirdi.

Artıq təsdiqini tapmış faktdır ki,1993-2003-cü illərdə Azərbaycanın sürətli inkişafı bugünkü reallıqların bünövrəsi rolunu oynayıb. Həmin illərdə görülmüş işlər sayəsində Azərbaycan inkişaf yoluna qədəm qoydu, beynəlxalq aləmdə daxili siyasətlə bağlı bütün məsələlərdə öz prinsipial mövqeyini nümayiş etdirdi, dünyada böyük hörmətə malik oldu. Ölkə daxilində başlanan və uğurla davam etməkdə olan islahatlar dövlətimizin və xalqımızın bu günü, gələcəyi üçün həlledici amil rolunu oynayır. Bugünkü Azərbaycan Heydər Əliyevin görmək istədiyi azad, müstəqil, ərazi bütövlüyü təmin olunmuş Azərbaycandır. Məhz Ulu Öndərin ordu quruculuğu istiqamətində başladığı işlər və müəyyənləşdirdiyi strategiya sayəsində bu gün Azərbaycan Silahlı Qüvvələri dünyanın ən güclü 50 ordusu sırasında yer alır, texniki təchizat baxımından bir çox ölkələrin ordularını üstələyir. 2003-cü ildən başlanan yol Böyük Yolun davamı kimi dəyərləndirilir. Həmin ildən başlayaraq Prezident İlham Əliyevin Ulu Öndərin siyasi kursunu uğurla davam etdirməsi və zənginləşdirməsi sayəsində Azərbaycan dünyanın dinamik inkişaf edən, modernləşən, beynəlxalq miqyasda nüfuzu gündən-günə artan dövlətinə çevrilib. Ölkəmiz yeni nailiyyətlər qazanaraq güclü və nüfuzlu dövlətlər sırasında öz mövqeyini daha da möhkəmləndirir. Uğurlu daxili və xarici siyasət həm Azərbaycanın yüksəlişi və inkişafında, milli maraqlarının qorunmasında, həm də ölkəmizin dünyanın siyasi arenasında layiqli yer tutmasında öz ifadəsini tapır. 44 günlük İkinci Qarabağ müharibəsində qazanılan möhtəşəm Zəfər də Ulu Öndər Heydər Əliyevin siyasi kursunun uğurlu davamının məntiqi nəticəsidir. Ulu Öndər Heydər Əliyevin ən böyük arzusu Şuşanı, Qarabağı və Zəngəzuru azad görmək idi. Müzəffər Ali Baş Komandan İlham Əliyev 8 noyabr 2020-ci ildə Şuşanın işğaldan azad edilməsi müjdəsini xalqa çatdırarkən “Mən xoşbəxt insanam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun, Azərbaycan!” fikirləri ilə Prezidentlik dövrünün əsas hədəflərini reallığa çevirdiyi üçün keçirdiyi hissləri xalqla bölüşdü. Dövlət başçısı tarixi Zəfərimizdən dərhal sonra işğaldan azad edilmiş ərazilərə səfər edərək Qələbə sevincini xalqla bölüşdü, bu torpaqların əsl sahibinin məhz Azərbaycan xalqı olduğunu bu məkanlardan sonsuz qürur hissi ilə dünyaya çatdırdı. Dünya hərb tarixində ilkə imza atan Azərbaycan müharibədən dərhal sonra genişmiqyaslı bərpa-quruculuq işlərinə başladı. Bu gün həmin ərazilərə Böyük Qayıdışın reallaşdırılması istiqamətində təxirəsalınmaz tədbirlər həyata keçirilir. Azad Qarabağ və Şərqi Zəngəzur cənnət məkana çevrilir. Sonsuz qürur hissi ilə qeyd edirik ki, Ulu Öndər Heydər Əliyevin xalqa 1 oktyabr 2003-cü il tarixli müraciətində əks olunan çağırışlar, inam və etimad real həyatda öz təsdiqini tapıb. Qarabağ münaqişəsinin tarixə qovuşması, Qarabağlı və Şərqi Zəngəzurlu Azərbaycanın bugününə və gələcəyinə nəzər salmaq sevincini bizlərə yaşadan möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandan İlham Əliyevə, rəşadətli Azərbaycan Ordusuna minnətdarlığımızı ifadə edir, canları, qanları ilə tarix yazan şəhidlərimizin ruhu qarşısında baş əyir, qazilərimizə Allahdan şəfa diləyirik.

### Heydər Əliyev Fondu Ulu Öndərin zəngin irsinin ən fəal təbliğatçısıdır

Reallıq budur ki, Heydər Əliyev Fondu tariximizə müstəqil dövlətimizin qurucusu kimi daxil olmuş Ulu Öndərin xatirəsinə xalqımızın ehtiramını ifadə etmək arzusundan, onun zəngin mənəvi irsini əks etdirmək, azərbaycançılıq fəlsəfəsinin ölkəmiz üçün əhəmiyyətini vurğulamaq, milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq zərurətindən irəli gələrək yaradılmışdır. 2004-cü ildə fəaliyyətə başlamış Heydər Əliyev Fondu təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya, ekologiya, sosial və digər sahələrdə müxtəlif layihələr həyata keçirərək yeni cəmiyyət quruculuğunda fəal iştirak edir, ölkənin sosial-iqtisadi inkişafına öz töhfələrini verir. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti həm ölkəmizdə, həm də beynəlxalq səviyyədə yüksək dəyərləndirilir. Fondun fəaliyyətində azərbaycançılıq ideologiyasının təbliği xüsusi yer tutur. Çoxəsrlik tariximizin hər bir səhifəsinin gənc nəslə çatdırılması istiqamətində Fondun həyata keçirdiyi layihələr təqdirəlayiqdir. Bugünümüzün əsas çağırışı olan işğaldan azad edilmiş ərazilərimizdə bərpa-quruculuq işlərində də Heydər Əliyev Fondunun xidmətləri böyükdür. Tarixi və dini abidələrimizin bərpası və yenidən qurulması istiqamətində mühüm addımlar atılır. Heydər Əliyev Fondunun bilavasitə təşkilatçılığı ilə Qarabağın tacı, türk dünyasının mədəniyyət paytaxtı Şuşada “Xarıbülbül” musiqi festivalı və Vaqif Poeziya Günləri ənənələri bərpa edilib.

### Yeni hədəflərə doğru

Təbii ki, görülən işlərlə və qarşıda dayanan hədəflərlə bağlı sıralamanı xeyli artıra bilərik. Əsas olan budur ki, xalqımız qazanılan uğurlarla kifayətlənmir, daim irəli baxaraq, yeni-yeni hədəflərə doğru addımlayır. Tarixi ədalətə, beynəlxalq hüququn norma və prinsiplərinə söykənərək 30 illik işğala son qoyub ərazi bütövlüyümüzü bərpa etdiyimiz kimi, hazırkı dövrün əsası çağırışı olan Qərbi Azərbaycana qayıdışımızı da təmin edəcəyik. Xalqımız tam əmindir ki, dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın birgə səyləri nəticəsində hər bir hədəfə nail olacaq, Azərbaycan daim möhtəşəm uğurları ilə dünyanı heyrətləndirəcək. Artıq üçüncü ildir ki, bütün uğurlarımızın bünövrəsi olan 15 İyun-Milli Qurtuluş Günündə Azərbaycanımıza və məğrur, yenilməz xalqımıza Zəfər ruhlu təbriklərimizi çatdırır, bundan böyük qürur hissi keçiririk. Milli Qurtuluşdan möhtəşəm Zəfərə doğru addımlayaraq bu istəyini reallığa çevirən, qalib ölkə kimi yeni reallıqlar yaradan, sülh gündəliyinin və yeni əməkdaşlıq formatlarının müəllifi kimi çıxış edən müasir müstəqil Azərbaycan, Milli Qurtuluş Günün mübarək olsun!



Mətanət Məmmədova

## Müstəqil həyatınız mübarək!

*14 iyun... Minlərlə gənc müstəqil həyata qədəm qoydu. “Son zəng” çalındı və onlar müstəqil həyata addımlarını atdılar. Çoxdan gənc olmuşdular. Lakin müəllimlərin də, valideynlərin də gözündə hələ də uşaq idilər. Bu tarixdən sonra sanki yetkinləşib əsl gənc oldular. Tək bir gün-14 iyun onları uşaqlıqdan gəncliyə atdı. Elə bil yeniyetmə də olmamışdılar. Uşaqlıq və gənclik...*

Həyat keşməkeşlərlə doludur. Müstəqil həyata atıldın-atılmadın, bu keşməkeşlər səninlədir. Ta dünənki uşaq, məktəbli deyilsən, müəllimlərin qoruması altında deyilsən. Müstəqil vətəndaşsan. Arzularının ardınca gedən vətəndaş. Bu yolda nələr var, nələr yox? Olanlar da çoxdur, olmayanlar da. Ən əsası, artıq məktəb həyatı yoxdur. 11 il arxada qaldı. Hər gün üz tutduğunuz, saatlarla sinif yoldaşlarınızla birlikdə çalışdığınız, oxuyub-öyrəndiyiniz məktəb yoxdur. Xatirələri ilə, yadda qalanları ilə o, dünəndə qaldı. Məktəbi ayrı ünvanlar əvəzləyir artıq. O ünvanlara doğru yolçuluğa çıxdınız: kimi universitetlərə, kimi orta ixtisas məktəblərinə, kimi istehsalat sahələrinə, kimi əsgərliyə, kimi ailə qurmağa və sair...

Məktəb bir yol idi, hamı o yolu 11 il ərzində gedirdi, saatlar sonra qayıdırdı. Lakin qarşıdakı yollar müxtəlifdir, saatları da, dəqiqələri də fərqlidir. Sonu da fərqlidir.

Siz artıq müstəqilsiniz. Oxumaq, işləmək, ailə qurmaq hüququnuz var. Lakin unutmayın ki, ağıllı addımlar insanı ən yüksək zirvələrə aparır. Müstəqili olmaq o deyil ki, qərarını verib, nə istədinsə, onu da edəsən. Müstəqil olmaq ətraflı düşünmək, böyüklərə məsləhət etmək, doğru yolu seçmək deməkdir. Müstəqil olmaq ağıllı düşünmək deməkdir.

14 iyun... Hər kəsin həyatından keçən uşaqlığın son günü. Bir gün içərisində böyüyüb qocaman olduğumuzu hiss etdiyimiz gün... Gücləndiyimizi, özümüzü qorumağı bacardığımızı duyduğumuz gün. Arzu-istəklərimizlə həyata atıldığımız gün.

Müstəqil həyatınız mübarək, əziz gənclər. Qoy 11 illik məktəb həyatından sizi ayıran son zəng yeni həyatınızda hər an uğur zənginə çevrilsin. Bitirdiyiniz məktəblərin adlarını universitetlərə, yüksək vəzifələrə, qarşıda quracağınız ailələrə götürə biləsiniz. Siz bu məktəblərdə iz qoya bilmisinizsə, övladlarınıza məktəbinizdən, dost və rəfiqələrinizdən gözəl xatirələr danışa biləcəksiniz. Xatirələrlə dolu 11 illik həyatınız gələcək övladlarınıza yaxşı mənada bir tərbiyə ocağı ola biləcək.

Müstəqil həyat büdrəmələri də sevir. Bu həyatda heç büdrəməyəsiniz. Həyatın qarşınıza çıxardığı bütün keşməkeşləri uğurla addımlayıb keçəsiniz.

Siz ölkəmizin gələcəyisiniz, əziz gənclər. Gələcəyimiz sizlərdən asılıdır. Vətən sizin çiyinlərinizdə olacaq yaxın gələcəkdə. Vətənpərvərliyinizlə, qabiliyyətinizlə, bacarığınızla Vətəni daim ucalarda saxlaya bilərsiniz. Qoy müstəqil həyat sizləri Vətənimizin müstəqilliyini, ərazi bütövlüyünü qoruyanların ardıcılı etsin. Səsiniz hər zaman yüksəklərdən gəlsin. Həyatın hansı səmtinə üz tutmağınıza baxmayaraq yolunuz açıq olsun. Müstəqil həyatınız sevincinizə, xoşbəxtliyinizə çevrilsin.

## Məktəblərdə “Son zəng” qeyd edilib

İyunun 14-də Azərbaycan məktəblərində “Son zəng” qeyd edilib. Elm və Təhsil Nazirliyindən bildirilib ki, 2022/2023-cü tədris ilində 98 min 647 şagird XI (XII) siniflərdən məzun olub. Onlardan 89 min 112 nəfəri Azərbaycan bölməsində, 8 min 824 nəfər isə rus bölməsində təhsil alıb. Zəngilan rayonu Ağalı kənd tam orta məktəbinin XI sinfindən isə 4 nəfər məzun olub. Cari tədris ilinin sonuna ölkə üzrə ümumtəhsil müəssisələrində təhsilalanların sayı 1 milyon 707 min 242 nəfərdir. Onlardan 90 min 648 nəfəri məktəbəhazırlıq qruplarında təhsilalan uşaqlardır ki, onlarda tədris prosesi mayın 31-də yekunlaşıb.

Tədris ilinin sonuna ölkə üzrə 4431 ümumtəhsil müəssisəsi fəaliyyət göstərir, onlardan 388-i Bakı şəhərində yerləşir. Ötən təqvim ili ərzində 30 təhsil müəssisəsi və 30 modul tipli məktəbdə əsaslı təmir və tikinti-quraşdırma işləri aparılıb. 2022/2023-cü tədris ilinin əvvəlində 150 min 289 nəfər birinci sinfə gedib, 90 min 26 nəfər məktəbəhazırlıq qruplarında təhsilə cəlb edilib. Qeyd edək ki, “Son zəng” tədbiri hər bir ümumi təhsil müəssisəsinin həyətyanı sahəsində, həyətyanı sahəsi olmayan ümumi təhsil müəssisələrinin idman və ya akt zallarında təşkil olunub.



# Ölkəmizdə taksi qiymətləri hansı durumdadır?




***"Uber" və "Bolt" taksi tətbiqi texnologiyanın həyatımıza uyğunlaşması ilə ortaya çıxıb. Belə ki, bu tətbiqlərdə qeydə alınmış ən yaxın nəqliyyat vasitəsi sərnişin tərəfindən onlayn qaydada sifariş verilir. Bu tətbiqlərdə taksi qiymətləri küçədə olan adi taksilərlə müqayisədə çox münasibdir. Üstəlik, tətbiqdə sıx-sıx endirimlər də olduğu üçün tələbat çoxdur. Bir çox insan, hətta iki küçə o tərəfə belə taksiylə getmək istəyir. Yəni, taksi qiymətləri ölkədə o qədər ucuzdur ki, insanlar bu addımı atır. Bu da tıxac kimi bir sıra problemlərə gətirirb çıxarır. SİA mövzu ilə bağlı araşdırma aparıb.***

Sərnişinlər tətbiqi smartfonlarına yükləyir və məkan məlumatlarını paylaşırlar. Sistemdə qeydiyyatda olan nəqliyyat vasitələri arasında sərnişinə ən yaxın olan nəqliyyat vasitəsi gedib sərnişini götürür.

2015-ci ildə UBS bankı dünyanın 72 metropoliten bölgəsində 5 kilometrlik qısa yol tariflərini müqayisə edərək taksi tarifləri ilə bağlı araşdırma aparıb. Bu hesablamaya görə, böyük metropolislərdəki qiymətləri İstanbuldakı qiymətlərlə müqayisə etsək, hesablanmış şəhərlərdən 36-sı Avropada, 18-i Asiyada, 6-sı Şimali Amerikada, 7-si Cənubi Amerikada, 2-si Okeaniyada, 3-ü isə Afrika qitəsində yerləşir.

Orta hesabla beş kilometr məsafə üçün taksinin qiyməti Okeaniyada 15,52 dollar, Şimali Amerikada 14,65 dollar, Avropada 11,77 dollar, Afrikada 5,3 dollar, Cənubi Amerikada 5,06 dollar, Asiyada 4,38 dollar təşkil edir. Əslində, hesablaya bilmək üçün bu ölkələrdə taksi sürücülərinin ildə nə qədər vergi ödədiklərini və digər xərclərini müqayisə etmək lazımdır.

Taksi qiymətləri Avropanın ən ucuz şəhəri Kiyev 1,59 dollar, Nyu York Şimali Amerikada 11,67 dollar, Boqota Cənubi Amerikada 1,71 dollar, Yeni Dehli Asiyada 1,54 dollar, Okeaniyada 11,52 dollardır. İstanbulda taksimetr açma haqqı hər kilometr üçün 4,0 TL və 2,5 TL-dir. Ümumi 5 km məsafə qət edildikdə ödənilən qiymət 16,5 TL-dir. Onu dolların hazırkı məzənnəsinə böldükdə 4,35 dollar təşkil edir.

Bəs, Azərbaycanda vəziyyət necədir?

Xatırladaq ki, bir neçə gün öncə Rəqəmsal İnkişaf və Nəqliyyat naziri Rəşad Nəbiyev Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında məsələyə toxunmuşdu: "Qanun layihəsinin hazırlanmasına uzun müddətdir ki, hazırlıq aparılır. Eyni zamanda, qanunun qəbul olunmasına dəlalət edən səbəblər var. Bunlar da ölkədə ekoloji təmizlik, vətəndaşlarımızın təhlükəsizliyi və s. məsələlərlə bağlıdır. Burada iki qrupda məsləhətçilər çalışır. Bir qrup Bakıda mobilliyin təmin olunması, digəri isə yeniliyin faydaları barəsində araşdırmalar aparır. Bütün dünya ölkələri şəhərlərinin əkizlərini hazırlayırlar. Taksilərin mobil datalarından yığılan məlumatlar artıq bizim bazada var. Bizim hədəfimiz taksi sayını deyil, taksi sifarişlərinin sayını azaltmaqdır. Taksi gedişlərinin əksəriyyəti 1,5 -3 km ətrafındadır. Bu məsafəni ya ayaqla, ya ictimai nəqliyyatla getmək olar. Hə, "ictimai nəqliyyat varmı?" sualı başqa bir mövzudur. Bizim ictimai nəqliyyatla bağlı kifayət qədər problemlərimiz var. Datalara görə ölkədə təxminən 67 min taksi fəaliyyət göstərir. Onların ortalama iş saatı 14-16 saatdır. Biz düzgün strategiya qursaq, həm iş saatlarını, həm gəlirləri tənzimləməklə onlar öz iş yerlərindən və gəlirlərindən məhrum olmayacaqlar. Birmənalı şəkildə taksi qiymətləri qalxacaq. Dünyanın heç bir yerində belə taksi qiymətləri yoxdur" - deyə nazir bildirmişdi.

Nəqliyyat eksperti Aslan Əsədov: "Bugünkü gündə Azərbaycan nəqliyyatında yenidənqurmalar və islahatlar sırf sərnişindaşımanın əsas predmeti olan taksi ilə sərnişindaşımaların mövzusudur. "Xarici şirkətlərin burada payı nə qədərdir?", "Faydalı iş əmsalı nə qədərdir?", "Onların yaxşı tərəfləri nədir?", "Müsbət və mənfi tərəfləri nədir?" kimi sualların müzakirəsini həll etsək, Azərbaycan nəqliyyatında sərnişindaşımanın əsas problemlərini həll etmiş kimi olarıq. Çünki müsbət tərəfləri ondan ibarətdir ki, mobil və çevikdir, xarici praktikaya əsaslanır.

Tutalım ki, bizdə bir şirkət quraq və o şirkəti təkmilləşdirək, vəsaitlər ayıraq, mütəxəssislər yetişdirməkdən ötrü xaricə mübadilə edək və s. Amma hazır varkən xarici şirkət ölkəyə həm investisiya qoyur, həm mobillik, çeviklik, insanlara üstünlük gətirir və əsas olan texnologiyanın üstünlüklərindən istifadə etməklə müəyyən prosesləri və prosedurları sərnişindaşımaya tətbiq edilir. Bu, müsbət tərəfləridir.

Mənfi tərəfləri də ondan ibarət ola bilir ki, müəyyən əmək müqavilələrinin olmamağı, sürücülərin işə qəbul və işdən azad olunma, onların operatorluq xidmətlərinin ürəkaçan olmaması və s. Amma ən böyük Azərbaycan istehlak səbətinin qazandığı şirkətlərin ölkədə ucuz qiymətlərin təklif etməsidir. Bu yaxşı əlamətdir ki, ölkədə ucuz qiymətlər tətbiq etdikdə qiymətlər bir növ akredasiya olunur, o cümlədən işsizliyin müəyyən dərəcədə dəstəyi olur. İndi hardasa firmalar və şirkətlər avtomobil gətirə bilər. Sırf biz sərnişin vətəndaş məmnunluğundan danışırıqsa, burada başlıca məsələ qiymət amili ilə bağlıdır və bu qiymətlər vətəndaşlarımızı məmnun edə bilir.

Uber və Bolt kimi bu şirkətlərin ölkədə ləğvini prinsip etibarilə və prosedur qaydalarına görə bunu ləğv etmək olar. Burada hər hansı bir çətinlik yoxdur. Bu ölkənin şəxsi qərarlarıdır və hər bir xarici və digər şəxslər də o qərarlara hörmətlə yanaşmalıdır. Çünki Azərbaycan qanunları bizim üçün ən ali qanunlardır. Amma bu bağlansa, sonda bizim vətəndaşlar onun ağrısını çəkəcəklərmi? Onlar da avtobus daşımaları kimi hansı səviyyədə qalacaqlar?".

Nəqliyyat eksperti Eldəniz Cəfərov: "Taksi qiymətlərinin yüksəlməsi ilə bağlı hər hansı bir qərar yoxdur. Amma əgər buna ehtiyac varsa, qiymətlər yüksələcək.

Lakin biz hamımız bilirik ki, Bakı şəhərində taksi qiymətləri ucuz deyil. Bu gün Bakı şəhərinin və əhalinin iqtisadi vəziyyətinə, ictimai nəqliyyatın qiymətinə taksi qiymətləri mütənasibdir. Amma qərarı sonda yenə də dövlət qəbul edəcək. Taksi qiymətləri bu gün vətəndaş üçün, sadəcə, əlçatandır. Əlçatan olmaqla ucuz olmaq isə tamamilə fərqli anlayışlardır".

***Ayşən Vəli***

ARAŞDIRMA

# "Səs" Media Qrup "Xatirə Kuboku"nun qaliblərini mükafatlandırıb

***Dünən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində olan Mənəvi Dəyərlərin Təbliği Fondunun təşkilatçılığı ilə "15 iyun - Milli Qurtuluş Günü"nə həsr edilmiş "Milli Qurtuluş - 30" adlı konfrans keçirilib. SİA xəbər verir ki, konfrans Azərbaycan Respublikasının himni ilə başlayıb.***



Daha sonra isə açılış nitqini edən Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov fondun Qurtuluş Günü və digər silsilə tədbirləri ilə bağlı məlumat verib: "Bu gün dünya coğrafiyasında 200-ə qədər ölkə var. Tarixi təcrübə onu göstərir ki, ümummilli lider yetişdirən xalqın dövləti daim mövcud olub. Sovetlər İttifaqı dağılında qurtuluşa böyük ehtiyac var idi. Uzun müddət müstəmləkə həyata keçmiş ölkəni yenidən ayağa qaldıra bilmək böyük bir qətiyyət tələb edirdi. Hansı ki, bu çətin missiyanı Ulu Öndər Heydər Əliyev yerinə yetirdi. Məhz həmin tarixə nəzər saldıqda, qurtuluş günümüzün Ulu Öndər Heydər Əliyevdən ayrı səsləndirilə bilməyəcəyinin fərqinə varırıq. Mənəvi Dəyərlərin Təbliği Fondu olaraq Bakı xaricində bölgələrdə də tədbirlər həyata keçiririk. Hazırda isə bölgələrimizdə "Dəyərlərimizin xilaskarı - Ulu Öndər" adı altında silsilə tədbirlərimiz baş tutacaq".




Daha sonra isə çıxış üçün söz Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlıya verilib: "Sovet dövründə istənilən sahədə vəziyyət çox pis və gərgin idi. Bunu indiki gənc nəslə dedikdə təəccüblənirlər. Çünki müstəqil gənclərimiz gözlərini müstəqil və güclü dövlətə açıblar. Bəzən dövlətçiliyimizin tarixindən danışıqdıqda ya 1918-ci il Cümhuriyyət, ya da 1991-ci il müstəqilliyimizin bərpasından danışılır. Lakin unutmaq olmaz ki, Azərbaycan dövlətçiliyinin tarixi məhz eradan əvvələ dayanır. Tarixi şəxsiyyətləri çox olan dövlət zəngindir. Ulu Öndər Heydər Əliyev isə öz imzası ilə tarixə iz qoymuş böyük bir şəxsiyyətdir. Biz məhz onun sayəsində müstəqilliyimizə çatmışıq".

"Mən bir neçə ay öncə Bakıda bir neçə ölkənin keçmiş baş nazirlərinin iştirakı ilə keçirilən tədbirdə iştirak etdim. Tədbir məhz Ulu Öndərin irsinə həsr edilmişdi. Tədbirdə Ukraynanın keçmiş prezidenti dedi ki, Azərbaycan xalqı xoşbəxtdir ki, onun balansı qoruyub, saxlaya bilən Heydər Əliyev kimi lideri olub. Bu sözləri eşitmək bir daha düşünməyə və ibrət götürməyə imkan verir"- deyə Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid qeyd edib.

Sözlərinə davam edən sədr bildirib: "Biz Ulu Öndərin vaxtikən müxtəlif sahələr üzrə atdığı addımların günümüzdə belə necə böyük əhəmiyyət daşıdığını görürük".

Çıxış edənlər içərisində Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov, BBMM-in Analitika şöbəsinin məsləhətçisi Araz Qurbanov, Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili və Rus Pravoslav Kilsəsinin Bakı Və Azərbaycan Yeparxiyasının nümayəndəsi Andrey Bezotosnıy olub.

Daha sonra isə çıxış üçün söz "Səs" İnformasiya Agentliyinin icraçı direktoru Vəli Vəliyevə verilib: "Bu gün xalqımız böyük sevinc və qürurla müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Ümummilli liderimiz Heydər Əliyevin 100 illiyini qeyd edir. Bu yubiley ili daha yaddaqalan fərqli bir tarixdir. Prezident İlham Əliyev cənablarının 29 sentyabr 2022-ci il tarixində "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" imzaladığı Sərəncam bir daha xalqımızın öz liderinə olan məhəbbətinin təzahürüdür".

Xatırladaq ki, SƏS Media Qrupunun təşəbbüsü ilə Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə və Milli Qurtuluş Gününün 30 illiyinə həsr olunan KİV komandaları arasında mini-futbol üzrə "Xatirə Kuboku" turniri keçirilib. Turnir "Rabitə" Bankın sponsorluğu və "Coca-Cola"nın dəstəyi ilə baş tutub. Mayın 13-də start götürən turnirdə 16 komanda : "SƏS" Media Qrupu, AzTV, ATV, Xəzər TV, ARB TV, AzərTAC İA, Trend İA, APA İA, Report İA, " Teleqraf" Media Qrupu, İki sahil qəzeti, Yeni Müsavat qəzeti, "Təzadlar" qəzeti, "Futbol+" qəzeti və "İdmanxəbər.az" saytının komandaları 4 qrupda mübarizə aparıblar.

Yarışlar AFFA-nın Hakimlər Komitəsinin təsdiq etdiyi peşəkar hakimlər briqadası tərəfindən idarə olunub. Birdövrəlik sistem üzrə keçirilən yarışda hər qrupdan ilk iki yeri tutan komandalar yarışın ikinci mərhələsində "Xatirə Kuboku" uğrunda mübariziyə başlayıblar. Sonda AzTV komandası "Xatirə Kuboku"nun qalibi olub". Sonda isə "Səs" Media Qrupunun təşəbbüsü ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə və Milli Qurtuluş Gününün 30 illiyinə həsr olunan KİV komandaları arasında mini-futbol üzrə "Xatirə Kuboku" turnirinin mükafatlandırma mərasimi keçirilib.

***Təbii-coğrafi baxımdan əlverişli mövqedə yerləşən Azərbaycanın geniş turizm potensialı var. Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası da rəngarəng landşaftı, fauna və florası, mineral bulaqları, müalicə mərkəzləri, qədim tarixi, mədəniyyət abidələri ilə zəngindir.***



# Analoqu olmayan turizm potensialına malik qədim Naxçıvan

Burada qədim dövrlərin yadigarı olan təbiət və tarixi abidələr - Möminə xatun, Qarabağlar, Yusif Küseyir oğlu, Gülüstan türbələri, əsrlərdən bəri qorunub-saxlanılan, yaşı 800 ildən artıq olan Şərq çinarı, nalbənd, tut ağacları və tarixi yaddaşı özündə əks etdirən qədim insanların ilk məskunlaşdığı yaşayış yeri olan Gəmiqaya, Kilit mağarası, möhtəşəmliyi ilə seçilən İlandağ, misilsiz təbiət abidələri olan Babək qalası, Göy-göl və yüzlərlə sənət əsərləri Naxçıva diyarının analoqu olmayan turizm potensialıdır. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində belə demişdir: "Naxçıvan qədim Azərbaycan torpağıdır. Naxçıvanda tarixi abidələr, dini abidələr, memarlıq abidələri, bütün toponimlər Azərbaycan xalqına məxsusdur. Əsrlər boyu Azərbaycan xalqı bu gözəl diyarda yaşamış, yaratmışdır".

ölkəmizin bir çox yerlərindən, o cümlədən Türkiyə, Gürcüstan, Ukrayna, Rusiya, Tacikistan, Qazaxıstan, Almaniya, Hollandiya, Avstriya və İngiltərə kimi xarici ölkələrdən gələn insanlar yuxarı tənəffüs yolları xəstəliyinin müalicəsi üçün əlverişli imkan tapırlar. Eyni zamanda, Duzdağın və Naxçıvan şəhərinin qədim tarixi, burada yaradılmış Duz Muzeyi də tanışlıq məqsədilə gələn turistlər üçün çox gözəl fürsət olur. Naxçıvanda böyrək daşlarının müalicəsi üçün istifadə olunan mineral su mənbələri sırasında Şahbuz rayonu ərazisindəki "Böyrək suyu" adlanan bulaq mühüm əhəmiyyətə malikdir. Burada bulaq suyunun qablaşdırılması və kütləvi istifadəsi üçün zavod fəaliyyət göstərir. Bu suyun dörd növ böyrək daşını salması faktı elmi cəhətdən təsdiqini tapıb. Qeyd edək ki, xarici ölkələrin heç birində belə tərkibdə mineral su yoxdur. Naxçıvandakı radonlu və kükürdlü suların analoqunu xarici ölkələrdə az-az tapmaq mümkündür.

## DÜNYADA ƏN ZƏNGİN VƏ GÜCLÜ MİNERAL TƏRKİBİ OLAN MÜALİCƏVİ SU

Bundan başqa, Culfa rayonu ərazisində yerləşən Darıdağ Arsenli Su







Bildiyimiz kimi, bu günlərdə Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı" təsdiq edilmişdir. Dövlət Proqramının məqsədi davamlı iqtisadi artımın təmin edilməsi və vətəndaşların həyat səviyyəsinin yaxşılaşdırılması sayəsində Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsini və ölkə iqtisadiyyatına tam inteqrasiyasını təmin etməkdən ibarətdir. Bu məqsədə nail olmaq üçün 2023–2027-ci illər üçün 11 prioritet istiqamət müəyyən olunmuşdur. Naxçıvanın iqtisadi-coğrafi mövqeyindən, təbii ehtiyatlarından, sosial-iqtisadi potensialından və tranzit imkanlarından səmərəli istifadə etməklə mövcud çatışmazlıqların aradan qaldırılması və iqtisadi inkişafının sürətləndirilməsi ilə bağlı tədbirlər sözügedən prioritet istiqamətlər nəzərə alınmaqla gerçəkləşdiriləcək. Həmin prioritetlər sırasında turizmin inkişafı da yer alıb. Dövlət Proqramına əsasən, Naxçıvan Muxtar Respublikasının duz yataqları, mineral suları, tarixi və dini 10 abidələrindən, ekoturizm üçün təbii əlverişli şəraitindən yararlanmaqla, regionun rəqabətqabiliyyətli turizm məkanına çevrilməsi məqsədilə bu sahənin inkişafına yönəlmiş tədbirlər görüləcəkdir. Sağlamlıq turizminin imkanlarının genişləndirilməsi, qış və kənd turizminin, ekoturizmin inkişaf etdirilməsi, turizm infrastrukturunun yaxşılaşdırılması istiqamətində tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Naxçıvan Muxtar Respublikasının turizm cəlbediciliyinin artırılması və tarixi memarlıq abidələrinin beynəlxalq səviyyədə qorunması məqsədilə həmin abidələrin UNESCO-nun maddi mədəni irs nümunələri üzrə əsas siyahısına salınması üçün iş aparılacaqdır. Eyni zamanda, turizm və rekreasiya zonalarının yaradılması da regionun turizm potensialının gücləndirilməsinə əhəmiyyətli təsir göstərəcək, turizm sahələrinin təbliği ilə bağlı layihələrin həyata keçirilməsi və turizm atlasının hazırlanması təmin ediləcəkdir.

Qeyd edək ki, Naxçıvanda son illər 1200-dən çox tarixi abidə pasportlaşdırılaraq qeydiyyata alınıb. 70-ə yaxın tarix və mədəniyyət abidəsi bərpa olunub. Möminə xatun türbəsi bərpa edilib, "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksində yenidənqurma işləri aparılıb, Yusif Küseyiroğlu və Nuh Peyğəmbərin məzarüstü türbələri, muxtar respublika ərazisindəki buzxanalar, Naxçıvan şəhərindəki "Came" məscidi, Zaviyə mədrəsəsi, İsmayılxan hamamı, Naxçıvanqala, Xan sarayı, Culfa rayonundakı Xanəgah Abidə Kompleksi, Əlincəqala, Gülüstan türbəsi, Ordubad rayonundakı Aza körpüsü, Qeysəriyyə və digər tarixi abidələr bərpa olunub. Bu il isə Nehrəm İmamzadəsi, Naxçıvan şəhərindəki İmamzadə, Qarabağlar Türbə Kompleksi və Yengicə kəndindəki Şərq hamamında bərpa işləri aparılıb.

## NAXÇIVANDA MÜALİCƏ TURİZMİ

Zəngin təbii sərvətlərə malik olan Naxçıvan Muxtar Respublikası təbii müalicə obyektləri ilə də məşhurdur. Bu müalicə obyektlərində dünyanın müxtəlif yerlərindən gələn insanlar şəfa tapırlar. Bu ərazidə 250-dən çox mineral və müalicəvi əhəmiyyətli su mənbələrinin mövcudluğu muxtar respublikada turizmin inkişafı üçün geniş imkanlar yaradır. Həmçinin, dünyada analoqu olmayan Duzdağ və Badamlı fizioterapiya xəstəxanaları və Darıdağ Arsenli Su Müalicəxanası böyük əhəmiyyət kəsb edir. Azərbaycanın mineral su ehtiyatının 60%-i muxtar respublikanın payına düşür. Mineral suların bir hissəsi müalicə əhəmiyyətlidir. Təbii müalicə obyekti Duzdağ bir sıra xəstəliklərin müalicəsində əvəzsiz rola malikdir. Naxçıvanda müalicə turizminin təşkili üçün mövcud olan mineral, su və iqlim ehtiyatları arasında Duzdağ Fizioterapiya Mərkəzinin, Darıdağ Arsenli Su Müalicəxanasının və Ağbulaq İstirahət Mərkəzinin imkanları hesabına təşkil olunan belə müalicə turizmi xidmətləri bu baxımdan regionun ümumi turizm potensialının mühüm bir hissəsini təşkil edir. Son illər Duzdağ Fizioterapiya Mərkəzi hər il orta hesabla 3500-4000 arasında pasiyent qəbul edir. 1979-cu ildə istifadəyə verilən mərkəzdə ilk vaxtlarda lazımi şərait olmadığından, mövcud tələbatı yetərincə ödəmək qeyri-mümkün idi. 2008-ci ildən burada pasiyentlər, tibbi və digər personal üçün yaradılmış müasir şərait bu gün müalicə turizmi üçün çox əlverişli imkanlar açmışdır. Mərkəzdə

Müalicəxanasında bir çox xəstəliklər müalicə olunur. Dünyanın bir çox yerlərindən buraya xəstələr müraciət edir. Darıdağ suyundan hələ qədim zamanlardan sümük-oynaq və əzələ sistemi xəstəliklərində, o cümlədən, duzlaşma adlanan xəstəliklərin müalicəsində geniş istifadə olunub. Darıdağ arsenli su dünyada ən zəngin və güclü mineral tərkibi olan müalicəvi sudur. Bu suyun bir çox xəstəliklərin müalicəsində faydalı olması kliniki təcrübələrdə də sübut olunub. 1978-ci ildən fəaliyyətə başlayan Darıdağ Arsenli Su Müalicəxanası 2005-ci ildə müasir tələblərə uyğun tərzdə yenidən qurularaq, istifadəyə verilib.

Sağlamlığın bərpa olunması üçün münasib iqlimdən istifadə, keçmişdə olduğu kimi, müasir dövrdə də aktualdır. Belə ki, kurort məqsədilə istifadə olunan iqlim mənbələri bütün əhali üçün ilboyu istirahətin ən sərfəli mənbəyidir.

Ölkəmizin sanatoriya-kurort ehtiyatlarından səmərəli istifadə etməklə, əhalinin sağlamlığının qorunmasını əsas məqsəd kimi qarşıya qoyub. Uzun illər ərzində bu sahədə aparılmış dövlət siyasəti nəticəsində, inkişaf etmiş və kütləvi tələbatı ödəyən kurort kompleksi yaradılıb. Əlbəttə ki, geniş turizm imkanlarına malik olan Naxçıvana turistlərin üz tutmasının səbəblərindən biri də buradakı infrastrukturla, tarixi abidələrlə yanaşı, sabitliyin hökm sürməsi ilə də bağlıdır. Naxçıvan beynəlxalq tədbirlərə, idman yarışlarına ev sahibliyi edir. Bildiyimiz kimi, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan olunması, ölkəmizin Gənclər Paytaxtı seçilməsi mühüm əhəmiyyətə malikdir. Əlbəttə ki, dövlətimiz tərəfindən Naxçıvanın inkişafı ilə bağlı görülmüş tədbirlər və qeyd etdiyimiz Dövlət Proqramı çərçivəsində görüləcək işlər buranın turizm imkanlarının daha da genişləndirilməsinə öz töhfəsini verəcəkdir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Tarixi yaradan və yaşadan Lider

*Əsrlər keçsə də, Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı və dövləti üçün gördüyü xeyirli, gərəkli işlər unudulmayacaq*



***Tarixi yaradan və yaşadan tarixi şəxsiyyətlər, liderlər arasında Azərbaycanın və dünya azərbaycanlılarının Ümummilli Lideri Heydər Əliyevin adı xüsusi hörmət və ehtiramla çəkilir və yazılır. Bütün ömrünü canından artıq sevdiyi xalqına, ölkəsinə həsr edən Ulu Öndər Heydər Əliyev tariximizdə müstəqilliyimizin memarı və qurucusu olaraq adını əbədiləşdirib. Ulu Öndər Heydər Əliyevin düşünülmüş siyasəti dövlətin gələcək həyatının inkişafına hesablanmışdır.***

TƏHLİL

Ulu Öndər Azərbaycan dövlətini və xalqını dövrün ən çətin sınaqlarından çıxararaq, ölkənin ictimai-siyasi, iqtisadi və mədəni-mənəvi tərəqqisinə nail olmuşdur. O, Azərbaycanın dövlət müstəqilliyinin qorunmasında və möhkəmləndirilməsində titanik fəaliyyət göstərərək fundamental uğurlara imza atıb. Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra Azərbaycan dövlətinin dirçəlməsində, onun mövqeyinin, təməlinin möhkəmlənməsində rolu əvəzsiz olmuşdur. Məhz 15 İyun xalqımızın tarixinə böyük əhəmiyyət daşıyan günlərdən biri - Milli Qurtuluş Günü kimi daxil olmuşdur. 1993-cü ilin 15 iyununda Ulu Öndər Heydər Əliyevin ikinci dəfə Azərbaycanda hakimiyyətə qayıdaraq xilaskarlıq missiyasını yerinə yetirməsi xalqımız tərəfindən dövlətimizin qurtuluşu kimi qeyd olunur və həmin tarixdən ölkəmizin yeni bir dövrü başlanıb.

## Xalqımızın milli dəyərlərinin qorunması Ulu Öndər Heydər Əliyev şəxsiyyətinin bəhrəsidir

Tarixin ağır, məşəqqətli dövrünə nəzər saldıqda aydın olur ki, o dövrdə dövlətimiz müstəqilliyini itirmək təhlükəsi ilə üzləşmişdi. Belə bir zamanda xalqın təkidi və istəyi ilə hakimiyyətə gələn Ulu Öndər Heydər Əliyev Ona etimad göstərənlərin ümidini tez bir zamanda doğrultdu. Ulu Öndərin məqsədyönlü siyasəti ilə Azərbaycanın şanlı və silinməz tarixi yazıldı. Dahi Şəxsiyyət xalqına möhkəm dövlətçilik təsisatlarına malik, demokratik və bəşəri dəyərlərə sadiq, dünya birliyində layiqli yer tutan müasir müstəqil Azərbaycanı bəxş etdi. Ölkəmizin qazandığı bütün uğur və nailiyyətlər, inkişaf və tərəqqi, xalqımızın milli dəyərlərinin qorunması Heydər Əliyev Şəxsiyyətinin bəhrəsidir. Ölkəmiz demokratiya, hüquqi dövlət quruculuğu yolu ilə irəlilədi, xalq birliyi yarandı.1993-cü ilin oktyabr ayının 3-də YAP-ın Sədri Heydər Əliyevin Prezident seçilməsi ölkəmizdə iqtisadi sabitliyin təmin edilməsi, tənəzzülə uğramasının qarşısının alınması və yeni dövrün tələblərinə uyğun şəkildə islahatların həyata keçirilməsində böyük əhəmiyyət kəsb etdi. Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısında başlıca xidmətləri sırasında dövlət müstəqilliyinin qorunub saxlanılması və inkişaf etdirilməsi istiqamətində görülən işlərdən biri kimi dövlət quruculuğunun hüquqi bazasının yaradılması idi. 1995-ci ildə qəbul edilmiş Konstitusiya Azərbaycan Respublikasının dövlət quruculuğunun əsaslarını qoydu. Ulu Öndərin birbaşa təşəbbüsü ilə hazırlanmış və ümumxalq səsverməsi nəticəsində qəbul olunmuş bu Sənəd, müstəqil Azərbaycanın ilk Konstitusiyası kimi tarixə yazıldı. 1995-ci ildə müstəqil Azərbaycanın ilk parlamentinə keçirilən seçkilər isə dövlət müstəqilliyinin möhkəmləndirilməsi prosesinin hüquqi bazasının yaradılmasına daha geniş imkanlar yaratdı. Onun gərgin səyləri nəticəsində hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu yolu ilə irəliləyən müstəqil Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşması, insanların azad, sərbəst yaşaması, qanunun aliliyinin təmin edilməsi məqsədi ilə ən yüksək tələblərə cavab verən normativ-hüquqi baza yaradıldı.

## Azərbaycan dünyanın sosial-iqtisadi mərkəzinə çevrilib

Bu gün Azərbaycan geniş quruculuq, abadlıq işlərinə, iqtisadi, sosial nailiyyətlərə imza atıb. Dünya xalqları, dövlətləri arasında Azərbaycanın əzəməti, qüdrəti açıqca görünür və qəbul edilir. Bütün bu uğurlar Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyevin uğurla həyata keçirdiyi dinamik inkişafın bəhrəsidir. Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Möhtərəm Prezidentimiz İlham Əliyevin yürütdüyü siyasət Azərbaycanın böyük nailiyyətlər əldə etməsinə səbəb olub. Müasir dövrümüzdə Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkədə uğurlu islahatlar aparılır, Azərbaycan regionun lider dövlətinə çevrilib, diplomatiya sahəsində uğurlar əldə edilib. Prezident İlham Əliyevin imzaladığı məqsədyönlü fərman və sərəncamlarla, qəbul etdiyi praqmatik qərarlarla, habelə, obyektiv reallıqdan irəli gələn addımları ilə ölkəmizin dinamik yüksəlişini və insanların rifahının yüksəlməsini təmin edib. 2003-cü ildən etibarən Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin uğurlu daxili və xarici siyasəti, məqsədyönlü islahatlar proqramı ölkəmizin bütün sahələrdə yeni nailiyyətlərlə müşahidə olunan sürətli inkişaf mərhələsinə qədəm qoymasına səbəb olub.

Prezident İlham Əliyevin həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olması ilə nəticələndi. Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun işğal altında olan torpaqlarımızı azad etmək məqsədilə zəfər yürüşünə başlaması və qırx dörd gün davam edən hərbi əməliyyatlar nəticəsində Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın edərək qələbə qazanması tariximizə yeni gün olaraq daxil edildi. Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən təsdiqlənən mükəmməl hərbi strategiya və taktika döyüş meydanında Azərbaycan Ordusunun "Dəmir yumruq" əməliyyatını sürətlə və az itki ilə həyata keçirməyə imkan verdi. Prezident İlham Əliyevin dediyi kimi, O, Ata vəsiyyətini, Ümummilli Lider Heydər Əliyevin ən böyük arzusunu – Qarabağın mənfur düşmənlərdən, işğalçı ermənilərdən azad olunmasını gerçəkləşdirdi. Ermənilərin qoyub qaçdığı hərbi texnikalar, silah-sursatlar bu gün Hərbi Qənimətlər Parkında nümayiş olunur. Burada təqdim edilən eksponatlar Azərbaycana Zəfər qazandıran döyüşləri bir daha göz önündə canlandırmağa imkan verir. Vətən müharibəsində qazanılan zəfər bütün türk dünyasının qələbəsidir.

## Xalqımız Ulu Öndər Heydər Əliyevin irsindən daim faydalanacaq

Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərimizdə sürətli yenidənqurma və bərpa işləri həyata keçirilməkdədir. Artıq keçmiş qaçqın və məcburi köçkünlər öz doğma yurdlarına qayıdırlar. İyunun 15-də daha bir qrup laçınlı öz evlərinə qayıtdılar. Qayıtdılar ki, yenidən o yelərə isti nəfəs versinlər, qursunlar, yaratsınlar. Söz yox ki, qazanılan bütün nailiyyətlərin əsasında Ümummilli Lider tərəfindən müəyyənləşdirilən siyasi kurs və Prezident İlham Əliyevin bu siyasi kursu uğurla davam etdirməsi faktı dayanır. Bu gün Azərbaycan dünyanın dinamik inkişaf edən, modernləşən, beynəlxalq miqyasda nüfuzu gündən-günə artan dövlətinə çevrilib və Prezident İlham Əliyevin rəhbərliyi ilə daha da yüksək zirvələr fəth edəcək. 2003-cü ildən Ulu Öndər Heydər Əliyevin siyasi kursunun davam etdirən ölkə Prezidenti İlham Əliyevin timsalında bir daha onun dahiliyinin şahidi olduq. Azərbaycan xalqı həmişə o irsdən faydalanacaq. Faydalandıqca zəfər və uğur qazanacaq. Bu gün Prezident İlham Əliyevin gördüyü işlərin zirvəsində ərazi bütövlüyümüzü bərpa etməklə Ata vəsiyyətini yerinə yetirməsi dayanır. Ümummilli Lider qeyd olunan müraciətində axıra çatdıra bilmədiyi işlərin cənab İlham Əliyevin xalqın dəstəyi ilə həyata keçirəcəyinə böyük inamını ifadə etmişdir. Ulu Öndər "Ona Özüm qədər inanıram" söyləməklə gələcək inkişafın aydın mənzərəsini təqdim etmişdir. Prezident İlham Əliyev bu müddət ərzində torpaqlarımızın işğaldan azad edilməsinə hazırlıq işləri çərçivəsində bütün zəruri addımların atılmasına nail oldu, Azərbaycanın iqtisadi imkanları daha da genişləndi, beynəlxalq münasibətlər sistemində rolu artdı, münaqişənin həlli üçün möhkəm hüquqi baza formalaşdı və ordu quruculuğu prioritet sahə kimi öndə oldu. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun gücü, qüdrəti, xalqımızın birliyi sayəsində Ulu Öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir oldu. 44 günlük Vətən müharibəsində şanlı Zəfərimiz Azərbaycan qarşısında yeni imkanlar yaratdı. Qürur hissi ilə deyə bilərik ki, Dahi Öndərimiz Heydər Əliyev müstəqilliyimizin, Prezident İlham Əliyev isə torpaqlarımızın xilaskarı kimi adlarını tarixə qızıl hərflərlə yazdılar. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Heydər Əliyevin 100 illiyinin keçirilməsi barədə qərar bir daha dahi şəxsiyyətin fəaliyyətinin ayrı-ayrı istiqamətlərinin dərindən araşdırılmasına, zəngin irsinin əhatəli təbliğinə geniş imkanlar yaradacaq. Əsrlər keçsə də, Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı və dövləti üçün gördüyü xeyirli, gərəkli işlər unudulmayacaq. Nə qədər Azərbaycan xalqı və dövləti var, Dahi Öndər Heydər Əliyev ideyaları da yaşayacaq.






**İ.ƏLİYEV**

# Laçına növbəti köç karvanı



**_44 günlük Vətən müharibəsində Azərbaycan tarixi ədaləti bərpa edərək, 30 ilə yaxın işğal altında olan torpaqları düşmən tapdağından azad etdi. Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən təsdiqlənən mükəmməl hərbi strategiya və taktika döyüş meydanında Azərbaycan Ordusunun "Dəmir yumruq" əməliyyatını sürətlə həyata keçirməyə imkan verdi. Azərbaycan Ermənistanın belini qırmaqla öz torpaqlarını düşmən tapdağından azad etdi. XXI əsrin müharibəsini aparan Azərbaycanın hərbi gücü, qüdrəti 44 günlük müharibə zamanında özünü göstərdi. Xatırladaq ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun 44 günlük Vətən müharibəsində qazandığı Zəfər 30 ilə yaxın doğma yurdun həsrətini çəkən keçmiş məcburi köçkün həmvətənlərimizin işğaldan azad edilmiş ərazilərdəki doğma yurd yerlərinə qayıtmasına imkan yaratmış oldu. Köçkünlük həyatı yaşadıqları dövrdə onlar daim dövlətimizin diqqət və qayğısı ilə əhatə olundular._**

Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunan ərazilərimizdəki abidələr, mədəniyyət ocaqları, məscidlər, qəbiristanlıqlar dağıdılıb, təhqir edilmişdir. Ümumiyyətlə, 30 ilə yaxın müddətdə işğal altında saxlanılan ərazilərimizdə yaşayış məntəqələrinin əksəriyyəti, orada həyat üçün zəruri olan sosial-iqtisadi infrastruktur obyektləri dağıdılıb. Həmin ərazilərimizdə ən müasir texnologiyalara əsaslanan quruculuq konsepsiyası əsasında bərpasına başlanılıb. Qısa bir zamanda reallaşan infrastruktur layihələr, abadlıq və quruculuq işləri Azərbaycanın iqtisadi gücünü bir daha ortaya qoymuş oldu. Şuşada, Füzulidə, Ağdamda və digər ərazilərimizdə görülən işlər Böyük Qayıdışımızı daha da yaxınlaşdırır. Zəngilan rayonun Ağalı kəndində də sürətlə görülən işlər bu şəhərin sakinlərini qoynuna aldı. Birinci "Ağıllı kənd" pilot layihəsi Zəngilanın 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə etmiş oldu. Birinci pilot layihə Zəngilanın Ağalı kəndində həyata keçirildi. Yenidən qurulan Ağalı kəndi müasir tələblərə uyğun olaraq quruldu. "Ağalı kəndinin timsalında hər bir Azərbaycan vətəndaşı və ümumiyyətlə, hər bir insan bizim planlarımızı görə bilər", - deyən Prezident insanlara, oraya qayıdacaq insanlara rahat şəraitin yaradılacağını bildirmişdi.

Ağalı kəndinə əhalinin köçürülməsi Böyük Qayıdışın ilk sorağı idi. Daha sonra Talış kəndinə köç başladı. Ağalı və Talış kəndindən sonra əzəli torpaqlarımızın sahibləri olan laçınlıların da bir qismi öz yurdlarına qayıtdılar. Mayın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Laçın şəhərinə qayıdan əhali ilə görüşərək, evlərin açarlarını onlara təqdim etməsi tarixi bir gün olaraq əbədiləşdi. İlk 20 ailə artıq Laçında yerləşibdir. Bu, əlbəttə ki, Azərbaycanın iqtisadi gücünün, dinamik inkişafının göstəriciləri sırasındadır. İşğaldan azad edilmiş bütün ərazilərimizdə, o cümlədən Laçın rayonunda abadlıq-quruculuq işləri sürətlə davam etdirilir. Yeni yollar salınır, infrastruktur qurulur, kəndlər, qəsəbələr bərpa edilir. Planlı və sistemli şəkildə görülən bütün işlər bilavasitə dövlətimizin başçısı cənab İlham Əliyevin nəzarəti altındadır. Məlumdur ki, dekabrın 1-i 2020-ci il tarixində Laçın rayonu Azərbaycan Respublikasına qaytarıldı. Bu, Azərbaycan Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin bəyanatında öz əksini tapmış oldu. Məlumdur ki, 18 may 1992-ci ildə Ermənistan Silahlı Qüvvələri Laçının işğalı zamanı 264 nəfər şəhid olmuş, 65 nəfər girov götürülmüş, 103 nəfər əlil olmuşdur. Rayon üzrə 1 yaşdan 16 yaşadək mövcud olan 24374 nəfər uşaqdan 18 nəfəri şəhid, 225 nəfəri əlil olmuş, 1071 nəfəri bir, o cümlədən 31 nəfəri hər iki valideynindən yetim qalmışdır. İşğal ilə əlaqədar rayona 7,1 milyard ABŞ dolları dəyərində ziyan dəymişdir.

Artıq işğaldan sonra digər ərazilərimiz kimi, Laçın da böyük quruculuq meydanına çevrilib. Müharibədən ötən müddət ərzində görülən işlər bu ərazilərdə əzəli sakinlərin tam yaşayışının təmin edilməsinin təzahürüdür. "Əziz laçınlılar, siz uzun illər əzab içində yaşamısınız, həm fiziki, həm mənəvi, ağır şəraitdə, yataqxanalarda, vaqonlarda, çadır şəhərciklərində. Ondan daha ağırı mənəvi əzab idi. Yəni, öz doğma torpağına qayıda bilməmək əzabı dəhşətlidir. Bunu hər kəs başa düşməlidir və başa düşür. Mən dəfələrlə həm Laçından, həm də o vaxt işğal edilmiş digər rayonlardan köçkünlərlə görüşəndə onlara ürək-dirək verirdim deyirdim ki, qayıdacağıq, qayıdacağıq! Görürdüm ki, son vaxtlar ümidlər bir az səngiyir, bu da təbiidir. Yəni, 30 ilə yaxın. Bunu anlamaq olar. Amma deyə bilmirdim ki, nə vaxt qayıdacağıq. Necə deyə bilərdim? Amma bilirdim ki, qayıdacağıq və əgər indi 11 il bundan əvvəlki görüşün videoyazısına baxsanız, görərsiniz demişdim ki, qayıdacağıq və Laçında daha gözəl evlər tikiləcək. Bax, belə də oldu. Ona görə sizin üçün və sizin kimi keçmiş köçkünlər üçün şərait ən yaxşı olmalıdır, ən gözəl olmalıdır ki, siz uzun əzablı illərdən sonra burada rahat yaşayasınız" - deyə Prezident bildirib. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq bərpa edilən və yenidən qurulan Laçın şəhərinə məcburi köçkünlərin qayıdışı davam edir. İyunun 14-də növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən Laçına yola salınıb. Daha 22 ailə - 72 nəfər doğma yurda dönüşün sevincini yaşayıb. Köçürülən ailələr, əsasən, Bakı və Sumqayıt şəhərlərində, həmçinin Abşeron rayonunda müvəqqəti məskunlaşma yerlərində ən ağır şəraitdə yaşayan məcburi köçkünlər arasından seçilib. Onlar Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşacaqlar.

**_Nəzakət ƏLƏDDİNQIZI_**

# Vətənə xidmət nümunəsi

## _Qusarda "Heydər Əliyev İli" çərçivəsində tədbir keçirilib_





"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində iyunun 14-də YAP Qusar rayon təşkilatı "Qurtuluşdan Zəfərə" mövzusunda tədbir keçirib. Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət olunub, önünə gül dəstələri qoyulub, Ulu Öndərin əziz xatirəsi dərin ehtiramla anılıb.



Tədbirdə Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Daha sonra Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

Tədbiri giriş sözü ilə açan YAP Qusar rayon təşkilatının sədri David İbramxəlilov Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətindən ətraflı danışıb, ölkəmizin müstəqilliyi və tərəqqisi yolunda misilsiz xidmətlərindən söz açıb. O bildirib ki, "Heydər Əliyev İli" ilə əlaqədar partiya tərəfindən keçirilən tədbirlərdə deviz kimi istifadə olunan Ulu Öndərin "Nə qədər ki, Azərbaycan var, mən də varam" kəlamı müasir Azərbaycanın timsalında öz təsdiqini tapır və müdrik dövlət xadiminin ideyalarının əbədiyaşar olduğunu təsdiqləyir.

Qusar Rayon İcra Hakimiyyətinin başçısı Şair Alxasov qeyd edib ki, Vətəni, xalqı qarşısında misilsiz xidmətlərinə görə, bu gün ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi ölkəmizin hər yerində və onun hüdudlarından kənarda hər bir azərbaycanlının yüksək ehtiramı və dərin minnətdarlıq hissi ilə geniş qeyd olunur: "Ulu Öndərimizin ümummilli və ümumbəşəri ideyaları daim xalqımızın, millətimizin yoluna işıq saçacaq və müstəqil dövlətimizin daha da güclənməsində böyük rol oynayacaq".

YAP Veteranlar Şurasının üzvü Xeyrəddin Qoca vurğulayıb ki, Ulu Öndər Heydər Əliyevin mənalı və şərəfli həyat yolu zaman, məkan anlayışına sığmır. Onun sözlərinə görə, bu gün Heydər Əliyev ideyaları əsasında dinamik inkişaf edən, qüdrəti və beynəlxalq nüfuzu getdikcə artan Azərbaycan yeni zirvələr fəth edir. Qazanılan bütün nailiyyətlərin əsasında Ulu Öndər Heydər Əliyevin siyasi kursunun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirməsi dayanır.

AMEA-nın müxbir üzvü, partiya veteranı, professor Novruz Quliyev bildirib ki, müstəsna xidmətləri ilə əbədilik qazanan Ümummilli Lider Heydər Əliyevin mənalı həyat yolu, zəngin və çoxşaxəli irsi tükənməz məktəbdir: "Ötən illərə nəzər salarkən Azərbaycan xalqının öz müdrik liderinin rəhbərliyi ilə qazandığı mühüm tarixi nailiyyətlərin bir daha şahidi oluruq. Müstəqil Azərbaycan dövləti Heydər Əliyevin bizlərə və gələcək nəsillərə əmanətidir".

YAP Təftiş Komissiyasının üzvü Həsən Həsənov çıxışında deyib ki, Ulu Öndərin yenilməz iradəsi, uzaqgörənliyi, fədakarlığı onu bütün dünya azərbaycanlılarının lideri edib, ömür yolu doğma Vətənə xidmət nümunəsinə çevrilib. Bütün şüurlu həyatını canından çox sevdiyi xalqına, ölkəsinə həsr etmiş bu müdrik siyasi və dövlət xadimi Azərbaycan tarixində müstəqilliyimizin memarı və qurucusu kimi yer tutub.

Qusar rayon Ağsaqqallar Şurasının sədri Vahid Mehdixanov, Vətən müharibəsi şəhidi Sənan Zamanovun atası, partiya üzvü Qahir Zamanov, Vətən müharibəsi qazisi, partiya fəalı İlkin Abuyev və YAP Qusar rayon təşkilatının gənc fəal üzvü Arzu Bağırova çıxışlarında vurğulayıblar ki, Ulu Öndər Heydər Əliyevin şərəfli ömür yolu Vətənə və xalqa sədaqətli xidmət nümunəsidir. Bu gün Azərbaycanın böyük uğurlara imza atması məhz Ümummilli Liderin ideyalarının əbədiyaşar olduğunu göstərir. Sonda YAP sıralarına yeni qoşulmuş gənclərə partiyaya üzvlük vəsiqələri təqdim olunub.

ARAŞDIRMA

# Ana südü, yoxsa ata “südü”?..

***Uşaqlarımız o zaman sağlam böyüyür ki, doğulduqları ilk gündən ana südü ilə qidalandırılırlar. Ta qədim zamanlardan ailə dəyərlərimizdə özünəməxsus yeri olan ənənələrdən biri də ananın övladını öz südü ilə qidalandırmasıdır. Bəzi xarici ölkələrdə hansı bir ananınsa körpəsini qidalandırmaqdan imtina etdiyini eşitdikdə hər zaman bizə qəribə gəlirdi və “bu, mümkün olan məsələdirmi?”,- deyirdik.***



Lakin ağlımıza belə gətirmirdik ki, zaman gələcək, bizdə də körpəsini qidalandırmaqdan imtina edən analar olacaq və getdikcə onların sayı artmağa başlayacaq. Hazırda ən aktual və gülünc olan məsələni isə əsla ağlımıza gətirməzdik ki, gün gələcək, ana övladına “fiqurasının” pozula biləcəyi səbəbindən süd verməkdən imtina edəcək. Həqiqətən də müasir dövrümüzdə insan elə hadisələrlə qarşılaşır ki, heyrət içərisində qalır. Bunların başında isə ana südü ilə qidalandırma dayanır. Ana nə üçün körpəsini qidalandırmaqdan boyun qaçırır, nə üçün süni qidalara maraq daha çoxdur? Nə üçün ailə büdcəsinin yarıdan çoxu körpələrin qidalandırılması üçün xərclənir?

Belə olanda isə ata “südü” məfhumu da meydana çıxır. Və belə bir sual doğurur: ana südü, yoxsa ana “südü”? Bütün bunlara nəzər salaq.

### Nədir ana “südü”?..

Təbii ki, süni qidalardır. O süni qidalar ki, bunun yükünü qoyuruq ataların üzərinə. İşlədi-işləmədi, qazandı-qazanmadı, maddi vəziyyəti bu yeməkləri almağa imkan verdi-vermədi, artıq uşağın qida məsələsi atanın üzərində olur. Buna şərait yaradan isə düşüncəsiz analar, onları maarifləndirməyi bacarmayan böyükləri-anaları və qayınanalarıdır.

Biz əgər ana olacaq qızımızı, gəlinimizi düzgün məlumatlandıra biləriksə, necə deyərlər başa salarıqsa, o, ana südünün nə qədər dəyərli olduğunu da vaxtında dərk edər. Beləliklə də doğum mərkəzlərində günlərlə uşaqları analardan kənar saxlamağın da qarşısı alınar, keysəriyyə əməliyyatına meyl də azalar. Nə üçün? İzahı belədir ki, əgər qadın keysəriyyə əməliyyatına üstünlük verirsə, onu bəri başdan bilsin ki, övladını sərbəst şəkildə qidalandıra bilməyəcək. Günlərlə özünə gələ bilməyən ana xəstəxanadan çıxana, normal həyata qayıdanadək uşağın başına elə oyunlar açılacaq ki, o, anaya yaxın durmayacaq. Süni yeməklərlə asanlıqla qarnını doyuran körpə özünə əziyyət verib anadan süd əmərmi?

Bu səbəbdən də birinci olaraq, qadınlar keysəriyyə əməliyyatından uzaq durmalıdırlar. Bu əməliyyatla uşaqlarına nə qədər ziyan vurduqlarının fərqində olmayan analar kütləvi şəkildə həmin üsulu seçirlər. Bu seçim illər sonra özünü göstərir, onda isə gec olur.

İkincisi, xəstəxanalarda uşaqları vaxtı-vaxtında ananın yanına gətirmirlər. Belə olan halda körpənin anası bir qədər tələbkar olmalı, uşağı əmizdirmək üçün tələb etməlidir. Doğuşdan az sonra əmizdirmə uğurla nəticələnir. Həm ananın südünün artmasına, həm də körpənin anaya bağlanmasına şərait yaradır. Ona görə də qadınlar doğuşdan əvvəl elə maarifləndirilməlidir ki, xəstəxanalarda baş verən bu kimi hadisələrə gözüaçıq yanaşa bilsinlər. Əks təqdirdə artıq evə buraxılanda onlar südlərinin olmamasından gileylənəcək və belə olanda isə ata “südü”nə ehtiyac yaranacaq.

Qadınlar var ki, bu məlumatları haradan alırlar, bilmirəm, süd verməklə formadan çıxacaqları onları qorxudur. Bu səbəbdən də körpələrinə süd verməkdən imtina edirlər. Səbəb isə onu qoyurlar ki, südüm yoxdur və ya azdır. Bir gün, iki gün, üçüncü gün uşaq



qalır ata “südü”nün ümidinə.

Atanın isə qayğıları çoxalır. Aylıq ən azı 500-600 manat əmək haqqı alan ata uşağın ehtiyaclarını qarşılamaqla üz-üzə dayanır. Günlük bezlər, cəmi 3-5 günə yetən qida, lazım olan dərmanlar, həkimə get-gəl və sair atanın qayğılarına çevrilir. O, aldığı əmək haqqı ilə bütün bunların öhdəsindən gəlməyə çalışır, lakin gələ bilmir. Belə olanda isə ailədə söz-söhbət yaranır. Boşanmaların bir səbəbi də elə bu olur. Qadın özünü çəkir bir kənara, əsla günahkar saymır. Kişi isə qalır problemlərlə üz-üzə. Söz-söhbət yarananda isə qadın yenə də anlamır ki, axı mən körpəmi qidalandırsaydım, heç bu söz-söhbət, problem də yaranmazdı. Həm ailəsinə, həm də körpəsinə zərər vuran qadın günahkardır, həm də çox günahkardır.

### Mütəxəssislər nə qənaətdədir?..

Mütəxəssislər bildirirlər ki, tibbin araşdırmaları, qayda-qanunları var. Həmin qanunlarda göstərilir ki, hər yüz nəfər dünyaya uşaq gətirən ananın ikisində bu və digər səbəbdən südün çatışmazlığı ola bilər. Buna tibdə hipoqalaktiya deyilir. Bu gün Azərbaycanda anaların cəmi 50 faizi 1 yaşa qədər öz övladlarına süd verir, bu yaşdan sonra faiz kəskin azalır. Bu zaman belə nəticə hasil olur ki, anaların 50 faizi süd verir, 50 faizi süd vermir. Süd verməyənlərin 2 nəfərini obyektiv səbəblərdən çıxırıq. Məlum olur ki, dünyaya uşaq gətirən 100 anadan 48-i əsassız olaraq körpəsinə süd verməkdən imtina edir. Bu paradoksal səbəbdir. Əslində ana qədər övladını istəyən ikinci şəxs ola bilməz. Eyni zamanda, onun doğma anası bilərək balasının sağlamlığına laqeyd yanaşır və ona süd vermir. Bizim vəhşi saydığımız şir, pələng, canavar öz balasına başqa canlının qidasını heç vaxt verməz. Ana isə bunu edir...

İnsan dərk etməlidir ki, süd verilmədiyi körpəsinin hüquq və haqlarını kobudcasına pozur, sağlamlığına qəsd edir. Görün nə qədər məntiqsiz addımdır. Digər tərəfdən, hazırda uşaqlar bir çox inkişaf qüsurları ilə üz-üzədir. Bu da gələcəkdə valideyn üçün problemə çevrilir.

Hansısa rəfiqənin “süd versən fiquran pis olacaq”, “kökələcəksən”, “sinən gözəl görünüşünü itirəcək”, “yoldaşının sənə istəyi azalacaq” və s. kimi fikirlərinə uyaraq öz balasına süd verməkdən imtina edən analar çoxdur. Onlar dərk etmir ki, əslində süd verməyin 50 faizi uşağa, 50 faizi qadına xeyirdir. Süd verən ananın orqanizmi baharda açan çiçəklər kimi təzələnir. Ümumiyyətlə, qadın hər dəfə uşaq dünyaya gətirəndə orqanizmi təmizlənir. Bu da ananın qazancıdır. Doğmayan qadınlarda müxtəlif xəstəliklər, o cümlədən döş xərçəngi riski çoxdur. Nəzərə almaq lazımdır ki, süd verməyən qadının döş xərçənginə yoluxma riski süd verənlərə nisbətdə 7 dəfə artıqdır. Bunların bilərək riayət etməmək insanın öz günahıdır.

### Süni qidaların qiymətinə gəlincə...

Qəti şəkildə məqsədəuyğun olmayan süni qidalardan çox təəssüf ki, bu gün minlərlə uşağa yedirdilir. Bu qidalar bütün market və apteklərdə satılır. Sözsüz ki, süni qidaları qazanc vasitəsinə çevirənlər də var, illərdir, öz bizneslərini bu qidalar üzərində quranlar da var. Bu, məsələnin digər tərəfidir. Necə deyərlər, ağlın var, alma, körpənə yedirtmə.

Lakin biz məsələyə çox ağılsızlıqla yanaşır, həmin qidaları market və apteklərdən daşıyaraq “canımdan artıq sevirəm” dediyimiz körpəmizə yedirirk. Tərkibinin nə olduğunu, necə hazırlandığını, hansı şəraitdə istehsal olunduğunu bilməyə-bilməyə alır, gətirir və qutu-qutu istifadə edirik.

Ana bütün qidalarla zəngin, öz uşağının orqanizminə uyğunlaşdırılmış südünün əvəzinə, bütün uşaqlar üçün olan bu qidalara düşünmədən üstünlük verir. Qidaların qiyməti isə od tutub yanır. Xətai metrosu ətrafında olan market və apteklərdə onlardan bir neçəsi ilə tanış oldum. “Kabrito” adlı süni yenək uşaq qidalarının ən bahalısıdır. Aptekdə bu qidanın 800 qramlıq qablaşdırmasının qiyməti 96, 400 qramlığı isə 55 manat 50 qəpikdir. Marketdə isə 1,2,3 nömrəli bu yeməyin hər biri 800 qramlıq qablaşdırmada 111 manatdır. “Friso1” marketdə 17.99 (kiçik ölçü), 34.49 ( böyük ölçü) manat, aptekdə 16.50, aptekdə 31 manatdır. “Aptamil”ə, “Hip”ə marketdə rast gəlmədim. Aptekdə “Aptamil”in qiyməti 21.40, “Hip”in isə 13 manat idi. Təbii ki, həm marketdə, həm də apteklərdə yeməklərin qablaşdırmasına və nömrələrinə görə qiyməti də dəyişir. Yeni uşağın ilk aylarında qidası bir qədər ucuz başa gəlirsə, qarşıdakı aylarda daha da bahalaşır.



Hələ sonrakı aylarda həkimlər bu qidaların köməkçilərini, çaylarını, peçenyelərini də qida rasionuna əlavə edirlər ki, bu da üstüstə daha baha başa gəlir.

Ardı Səh. 12

# Ana südü, yoxsa ata “südü”?..




Əvvəli-Səh-11

Kiçik bir araşdırma edərək belə qənaətə gəldik ki, apteklərdən süni qidaların alınması marketlərə nisbətdə ucuz başa gəlir. Bunu yəqin ki, həmin qidaların daimi alıcıları yaxşı bilirlər. Bilməyənlər də bilsin ki, bu qidaları apteklərdən 3-5 manat aşağı qiymətə almaqla ay ərzində bir qutu yeməyə qənaət etmiş olarlar. Bu da ana südündən məhrum etdikləri övladlarının barı doyunca yeməsinə şərait yaradar. Onsuz da süni qidaların heç bir tutumu yoxdur. Uşaq bir yandan yeyir, bir yandan acır. Tərkibində nə olduğu mütəxəssislərin araşdırması məsələ olsa da, onu deyə bilərik ki, bəli, bu qidalarda aclıq hissi yaradan nələrsə var. Bu da sözsüz, “al ki, alasan” prinsipinə hesablanıb.

### Süni qidalara, yox, deyək!

Körpənin ana südü ilə əmizdirilməsi 50 faiz uşaq üçün əhəmiyyətlidirsə, 50 faiz də ana üçün faydalıdır. Belə ki, ana südü ilə qidalandırma ilkin olaraq körpəni qulaq infeksiyalarından, ishal, pnevmoniya və digər xəstəliklərdən qoruyur. Döş xərçəngi, yumurtalıq xərçəngi və diabet riskini azaltmaqla həm də analar üçün faydalı olur?

Uzun müddət ana südü ilə qidalandırma uşağı orta qulaq, boğaz və sinus infeksiyalarından, həmçinin çoxsaylı tənəffüs və mədə-bağırsaq xəstəliklərindən qoruyur. Hətta 6 ay ərzində yalnız ana südü ilə qidalanan körpələrdə ciddi soyuqdəyməyə məruz qalma, eləcə də qulaq və boğaz infeksiyalarına tutulma, ani körpə ölümü sindromu, astma, atopik dermatit və ekzema, diabet, leykozun yaranması riski daha az olur.

Ana südü ilə qidalanma sağlam çəki artımına kömək edir və piylənmənin qarşısını alır. Araşdırmalar göstərir ki, 4 aydan çox ana südü ilə qidalanma körpənin artıq çəki və piylənmə riskini əhəmiyyətli dərəcədə azaldır. Bu, müxtəlif bağırsaq bakteriyalarının inkişafı ilə əlaqədar ola bilər. Ana südü ilə qidalanan körpələrdə çox miqdarda faydalı bağırsaq bakteriyası var ki, bu da yağların depolanmasına təsir edir. Ana südü ilə qidalandırılan körpələrin orqanizmində süni qida ilə qidalanan körpələrə nisbətən daha çox leptin var. Leptin iştahanı və yağ yığımını tənzimləyən əsas hormondur.

Ana südü uşaqların zehni inkişafına təsir edir. Araşdırmalar nəticəsində müəyyən olunub ki, ana südü ilə qidalanma körpələrin uzunmüddətli beyin inkişafına əhəmiyyətli dərəcədə müsbət təsir göstərir. Həmçinin ana südü ilə qidalanan körpələr daha yüksək intellektə malik olur və böyüdükcə öyrənmə çətinliyinə, eləcə də davranış problemlərinə daha az məruz qalırlar.

*Ana südü ilə qidalanma sağlam çəki artımına kömək edir və piylənmənin qarşısını alır. Araşdırmalar göstərir ki, 4 aydan çox ana südü ilə qidalanma körpənin artıq çəki və piylənmə riskini əhəmiyyətli dərəcədə azaldır. Bu, müxtəlif bağırsaq bakteriyalarının inkişafı ilə əlaqədar ola bilər.*



Dünyada hər 10-cu qadın süd vəzisinin xərçəngi və uşaqlıq boyunun xərçəngindən əziyyət çəkir və bu, dünyada qadın ölümünə səbəb olan xəstəliklərin ilk sıralarındadır. Məhz Azərbaycan qadınlarında da bu xəstəliyin olması və yayılması ürəkaçan deyil. Dünya təcrübəsi göstərir ki, süd vəzisi xərçəngini ilkin mərhələdə aşkarlamaqla, onun gələcək inkişafının qarşısını almaq mümkündür. Bu xəstəlik və ümumiyyətlə, cəmiyyət arasında belə xəstəliklərə qarşı maarifləndirmə işləri aparılmalıdır. Maarifləndrmənin əsas məqsədi odur ki, həmin xəstəliyin ilkin nəticələrini aşkar edən qadın həkim müayinəsindən keçir və xəstəlik erkən dövründə aşkarlandığı üçün müalicə olunur. Körpəsini ana südü ilə qidalandıran qadınlarda bu xəstəliyin olma təhlükəsi digər süd verməyən qadınlara nisbətən azlıq təşkil edir. Odur ki, UNİSEF ana südü ilə əmizdirmənin təbliği ilə bağlı çox böyük işlər aparır. Bu təbliğatı evdə, iş yerində, xəstəxanalarda hər kəs gənc qadınlar üçün aparmalıdır ki, onlar özlərini hansı təhlükə ilə üz-üzə qoyduqlarını anlasınlar. Həm özlərini, həm də körpələrini xilas etsinlər.

### Kişilərin qürurunu sındırmayaq!

Beləliklə, ana südü ilə qidalandırma həm uşaq, həm də ana üçün faydalıdır. Yaxşı olar ki, gənc analar fiqura, görünüş məsələlərini bir kənara qoyub bu barədə düşünsünlər. Bir də ataları düşdükləri və düşəcəkləri çətinlikdən xilas etsinlər. Ailə büdcəsini nəzərdən keçirib, ataların dediyi kimi, ayaqlarını yorğanlarına görə uzatsınlar.

Bir kişinin uşağına yemək ala bilməməsi bir qadının yanında qürurunun sınması deməkdir. Ailədə üzüqara olması deməkdir. Borc aldığı, iş yerində avans götürdüyü insanların yanında sınması deməkdir. Tanış marketlərdə adını yazdırıb nisyə yemək alması onun qarşısındakının yanında məhvi deməkdir.

Əziz qadınlar, analar, ana olacaq qadınlar, bütün bunları oturub əməllibaşlı düşünmək vacibdir. Ailələrimizin dağılma səbəblərindən biri olan maddi vəziyyəti daha da kəskinləşdirməyə çalışmayın. Övladlarınızı öz südünüzlə qidalandırıb ailə büdcəsinə qənaət etmək, ən əsası isə ata “südü”nə ehtiyac olan uşaqların ehtiyacını ödəməklə həm körpənizi, həm də həyat yoldaşınızı qorumaq bir qadın kimi hər birinizin borcudur. Çünki “südüm yoxdur” deyilən bir məsələ yoxdur. Ərincəklik, səhv düşüncə, aldanmaq, biganəlik var. Bunlara “yox!” deyib uşaqlarınızı iki yaşınadək əmizdirin. Bu zaman həm həyatın, həm də özünüzün daha da gözəlləşdiyini görəcəksiniz.

**Mətanət Məmmədova**



Lalə Mehralı

## Ancaq yaxşı adamların övladı olmalı...

***Qadınlar hamilə olduqlarını öyrənən andan analığı hiss etməyə başlayırlar. Körpələri bətnlərində böyüdükcə onlar hər mərhələni hiss edirlər. Kişilərdə vəziyyət fərqlidir. Körpələri dünyaya gələndən sonra ata olduqlarını anlayırlar. Amma yaradılışdan hər insanın daxilində bənzər hisslər var. Uşaq ikən oynadığımız evcik oyunlarında ana-ata roluna büründüyümüz də az olmayıb.***

### Ana olmaq...

Qeyd-şərtsiz sevməkdir, əvəz gözləmədən özündən, vaxtından, sağlamlığından verməkdir, hər şeyə rəğmən dözməkdir, bağışlamaqdır, heç azalmayan şəfqət göstərməkdir, yorğun olsa belə yorulmamaqdır, durmadan öyrətməkdir, bezmədən qulaq asmaqdır, dəstək olmaqdır, məsuliyyət daşımaqdır, bacaracağımızı səbrlə gözləməkdir, fikri yanında qalsa da “öyrənsin” deyə məsuliyyət verməkdir, sonsuz suallara cavab verməkdir, kəşf etdiyimizlə qürurlanmaqdır, doğulan kimi göbək ciyəmiz kəsilsə də ömür boyu görünməz bağlarla bağlı olmaqdır. Anamızdır axı!

### Ata olmaq...

Sonsuz güvəndir, məsuliyyətdir, artıq böyüdüyünün fərqində olmaqdır, bitməyən etibardır, yenilməyən döyüşçüdür, nağıllardakı qəhrəmandır, ən yaxşı oyun yoldaşıdır, ən etibarlı dostdur, sonsuz səbirdir, özgüvəndir, tək bioloji yox, ruhən bağlı olmaq deməkdir, birlikdə yorulmamaqdır, evə tələsməkdir, problemlərin həllidir, hər daşın altına əlini qoymaqdır. Ata olmaq çətin peşədir məncə.

İnsan dünyaya gələndə ailəsini seçə bilmir, necə bir ailədə doğulacağımız bizim istəyimiz xaricində baş verir. Amma biz gələcək övladımızın atasını, yaxud anasını seçə biləcək iqtidardayıq. Seçimlərimiz tək bizim yox, həm də gələcək övladımızın həyatına təsir edəcək. Xoşbəxtliyimiz və ya bədbəxtliyimiz dolayısı ilə övladımıza ötürdüyümüz həyatımız olacaq. Kim istəyər ki, övladı bədbəxt bir ailədə dünyaya gəlsin? Həyat yoldaşı seçərkən necə ər, necə arvad olacağını düşünməklə yanaşı “bu insan mənim övladıma necə ana, necə ata ola bilər?” gözü ilə də baxmaq lazımdır məncə.

Yalnız yaxşı insanların nəsil artırma qabiliyyəti olsaydı, nə gözəl olardı, elə deyil? Təsəvvür edin, ancaq yaxşı adamların uşaqları olur, ancaq yaxşı adamlar uşaqlara tərbiyə verir, ancaq yaxşı adamların yaxşı tərbiyə verdiyi yaxşı uşaqlar böyüyüb yaxşı insan olur. Daha möhtəşəm bir dünya olmazdımı dünyamız onda?

Bu günlərdə fb dostlarından biri öz səhifəsində bir video paylaşmışdı, mağazasının nəzarət kamerasının görüntüləri idi. Velosiped, skuter satışı ilə məşğul olan mağazanın önünə ana-bala yaxınlaşır, ana ətrafa baxır, heç kimin olmadığını görür və skuteri götürüb övladı ilə gedir. Elə belə də olmalı imiş kimi, elə beləsi normalmış kimi. Övladının gözü önündə oğurluq edir, övladına tərbiyəni belə verir, anormal hərəkəti normallaşdırır. Onun övladı olmalıdırmı sizcə?

Uşaq və qadın sığınacağının rəhbərləri öz səhifələrində uşaqları paylaşır bəzən, həyat hekayələrini yazırlar. Övladına zorakılıq edən, işgəncə verən, bədənini istismar edən, başqalarına satan ataların-anaların uşaqları var o sığınacaqda, öz valideynlərindən qoruyurlar onları, təsəvvür edirsiniz? İnsan öz valideynindən qorunarmı? Qorxarmı? O valideynlərin uşağı olmalıdırmı sizcə?

Ancaq yaxşı adamların uşaqları olmalıdır məncə. Yaradan ancaq yaxşı adamlara nəsil artırma qabiliyyəti verməlidir. Yoxsa gündən günə çirkinləşən, mənəviyyatı eybəcərləşən, əxlaqı korlanan cəmiyyətlərin qurtuluş şansı olmayacaq.




# Şuşa Azərbaycan iqtisadiyyatına hansı potensialı vəd edir?

***Azərbaycanın mədəniyyət paytaxtı hesab edilən Şuşa şəhəri özündə əks etdirdiyi mədəni nümunələrlə orta əsrləri tərənnüm edir. Şuşa, Qarabağ xanlığının paytaxtına çevrildikdən sonra şəhərə zadəgan məmur ailələri köçürüldü. Şəhər əvvəlcə Pənahabad adlanırdı. Sonralar Qala, sonra Şuşa Qalası, ən sonda isə, sadəcə, Şuşa adlandırıldı. Strateji cəhətdən əlverişli yerdə yerləşən, iqtisadi cəhətdən mühüm karvan ticarəti marşrutlarını nəzarətdə saxlayan Şuşada qısa müddətdə yaşayış və sənətkarlıq məhəllələri də tikildi.***

### Hər məhəlləyə spesifik yaşayış tərzi

Şuşada həvəslə məskunlaşan sənətkarlar şəhərin şərq məhəlləsinin strukturunda on yeddi kiçik məhəllə saldılar. Onların hamısının yerləşdiyi məhəllələrin xüsusi adı vardı, bu adlar sakinlərin peşəkar məşğuliyyəti və hətta köçkünlərin gəldiyi kəndlərin adları ilə müəyyən edilirdi. Culfalar, Çöl Qala, Çuxur, Dəmirçilər, Dörd çinar, Dördlər qurdu, Hacı Yusifli, Hamamqabağı, Xoca Mərcanlı, Köçərli, Qazançalı məhəlləsi, Qurdlar, Quyuluq, Mamayı, Mərdinli, Saatlı, Seyidli, Təbrizli və Təzə məhəllə adlı 19 məhəlləsi olan Şuşada hər məhəllənin adına uyğun məskunlaşma var idi.

Böyük şair Molla Pənah Vaqifin əsasını qoyduğu belə "məhlə"lərdən biri də onunla birlikdə Saatlı nəslindən olan ailələr köçdükləri üçün "Saatlı" adlanırdı. Bu məhəllədə məskunlaşan gənc Vaqif elə məhəllədəcə uşaqlar üçün məktəb açıb, burada özü dərs deyirdi.

Keçmişdə Şuşanın tranzit və olduqca aktiv karvan yolu üzərində, əlverişli yerdə yerləşməsi şəhəri tez bir zamanda əsas canlı ticarət mərkəzinə və əhəmiyyətli ixracyönümlü sənətkarlıq sənayesi şəhərinə çevirdi. Şəhərin böyüməsi ictimai binaların, qapalı bazarların, karvansarayların, məscidlərin, hamamların, o cümlədən çoxsaylı və özünəməxsus memarlıq yaşayış binalarının intensiv tikintisi ilə müşayiət olundu, bunların əksəriyyəti bəy və ticarət elitasının nümayəndələrinə məxsus idi.

### SSRİ Şuşanı "Azərbaycanın Kislovodsku" deyə tanıdırdı

Sovet dövründə müstəsna havasına görə Şuşa ümumittifaq əhəmiyyətli əsas kurort və turizm mərkəzlərindən birinə çevrildi. Buna mülayim iqlimi və qiymətli suyu olan İsa bulağının da təsiri oldu. müalicəvi mineral bulaqları kömək etdi.

Şuşaya bronxial astma, xroniki bronxit, maddələr mübadiləsi, sinir sisteminin pozğunluğu olan xəstələr müalicə üçün gəlirdilər. Şəhərin inkişafı planlarına çoxsaylı istirahət evlərinin, tibb müəssisələrinin, sanatoriyaların, pansionatların, turizm mərkəzlərinin tikintisi daxildir.

Həm mövcud turizm komplekslərinin genişləndirilməsi, həm də yeni turizm komplekslərinin yaradılması, o cümlədən dağxizək idmanı üçün Şuşa yaxınlığında kütləvi turizmin inkişafı üçün böyük imkanlar var. Bu proqramın uğurla həyata keçirilməsinə Xankəndinə çəkilən dəmir yolu kömək edəcək.

Sovet illərində alimlər Şuşa iqliminin müalicəvi keyfiyyətlərinin: havanın, suyun, dərman bitkilərinin öyrənilməsinə çox vaxt sərf edirdilər. Sübut olundu ki, Şuşa deməkolar ki, ideal dağ iqlimi və müalicəvi kurortdur. "Dərviş Parisi partladır" filmində Qarabağa səfər edən Müsyö Jordan obrazı ilə Qarabağın müalicəvi otları barədə az da olsa məlumat verilir.

Mingəçevir SES layihəsinin müəlliflərindən biri, klimatoloq İvan Fiqurovski (1869-1940) Şuşanı Qafqazın digər kurortları ilə müqayisə edib: "Şuşa günəş işığına, günün uzunluğuna və istiliyinə görə Kislovodsk və Abastumani kimi kurortlara bərabərdir. Şuşa mülayim dağlıq iqlimin hökm sürdüyü yerdə yerləşir. Qarabağ dağları soyuq küləklərin qarşısını alır və bu, Şuşadan qışlaq kimi istifadə etməyə imkan verir".

### Şuşa gəlirli sanatoriya-kurort şəhəri olacaq

Aparılan tədqiqatlar Şuşanin kurort infrastrukturunun inkişafına səbəb olub. 1932-ci ildə burada Azərbaycan Həmkarlar İttifaqları Sovetinin 1 saylı İstirahət Evi tikilib, burada ildə 4 minə qədər insan istirahət edirdi. Xan sarayının yerində və şairə Xurşudbanu Natəvanın evində Respublika Uşaq Vərəm Sanatoriyası yaradıldı, çünki Şuşanın havası yuxarı tənəffüs yollarının müalicəsi üçün əvəzsiz müalicəvi dəyərə bərabər tutulurdu.

Sonralar nisbətən böyük və imkanları geniş "Şuşa" sanatoriyası tikildi. Səkkiz yataq otağı və bir tibb binası, rəqs meydançaları, açıq və qapalı konsert salonları, idman və oyun meydançaları olan sanatoriya SSRİ və dost ölkələrin vətəndaşları üçün arzu olunan istirahət yerinə çevrildi. İstirahət və əyləncə üçün müasir şəraitlə yanaşı, sanatoriyanın ərazisində memarlıq abidələri, o cümlədən şəhərin qala divarının bir hissəsi də var idi.

Şuşaya gələn turistlər Turşsu, Dəmirsu, Cırlan mineral suları ilə müalicə olunublar. Uzunmüddətli tibbi araşdırmalar təsdiqlədi ki, bu kalium-karbonatlı sular mədə-bağırsaq və revmatik xəstəliklərin müalicəsi üçün əla vasitədir və orqanizmdə sümük iliyinin bərpası qabiliyyətini artırır. Şuşanın səhiyyə ocaqlarında hər il 25 minə qədər insan müalicə olunurdu.

Ermənilərin şəhəri işğal etməsi ilə kurort faktiki olaraq fəaliyyətini dayandırdı. Vandallar Şuşadakı sanatoriyaları və düşərgələri qarət etdilər və apara bilmədiklərini sadəcə məhv etdilər. 2-ci Qarabağ müharibəsində şəhərdə qurulan istehkamlar, gedən qızğın döyüşlər də ciddi infrastruktur zədələri yaratdı.

### Mədəniyyət paytaxtının xidmət potensialı

Xatırladaq ki, bu ilin may ayında Şuşa mehmanxana-konqres mərkəzi kompleksinin açılışı oldu, açılışda prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva da iştirak etdilər. Otelin açıldığı yerdə erməni vandalları qondarma respublikanın parlament binasını tikməyi planlayırdılar.

2021-ci il avqustun 29-da Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə təməli qoyulan Şuşa otel-konqres mərkəzi kompleksi şəhərin mərkəzində - Qələbə yolunun yanında yerləşir. 2022-ci ildə Şuşa şəhəri ili çərçivəsində karvansaray konsepsiyası əsasında layihənin icrasına başlanılıb. Tikinti işlərinə yerli və xarici şirkətlər cəlb olunub. Həm klassik, həm də postmodern memarlıq üslubunda dizayn edilmiş bina mürəkkəb quruluşa malikdir.

Binanın interyer dizaynı Azərbaycanın iqliminin, mədəniyyətinin və tarixinin müxtəlifliyini və zənginliyini əks etdirir. Şuşa mehmanxana-konqres mərkəzi kompleksinin xarici tərtibatında ornamental kompozisiyalardan və milli memarlıq elementlərindən istifadə olunub. Fasad üzlüklərində Şuşada tarixi binaların tikintisində istifadə olunan yerli daşdan istifadə edilib. Binanın fasadının relyef dekorasiyası və vestibülün girişinin üzlənməsi təbii Şuşa daşından işlənib. Unikal memarlıq dizaynı ilə diqqət çəkən dördmərtəbəli binada 154 otaq, konfrans və banket zalı, restoran, hovuz, spa, fitnes zalı və digər xidmət sahələri var.

Dövlət Turizm Agentliyi bildirir ki, Şuşada yeni mehmanxanaların istifadəyə verilməsi ilə turist axını gözlənilir. Hazırda Şuşa Qarabağda turist qəbul edə bilən yeganə yerdir. Şuşaya avtobus turları əsasən sosial xarakter daşıyır. Şuşada mədəni irs obyektlərinin genişmiqyaslı bərpası şəhərdə turizmin mədəni yönümlü olmasından xəbər verir. Bundan əlavə, şəhərdə müxtəlif festivalların keçirilməsi ənənə halını alır. Bütün bunların fonunda əminliklə deyə bilərik ki, tezliklə Şuşaya həm uzaq, həm də yaxın xaricdən çoxlu sayda turist gələcək.

***Lalə Mehralı***

# Gənc partiya fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər




***"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiqlənən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması, xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.***





YAP Tovuz rayon təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə Tovuz rayon Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub. Mərkəzdə gənclərə müstəqil Azərbaycan dövlətinin memarı, ümummilli lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilib, gənclər eksponat, fotoşəkil və kitablarla tanış olublar.

# SKANDAL: Sarkisyanın kokain alverçisi olan dostu məşhur avtoritetlə "dəyişdirilir"!

*Ermənistanda radikal siyasi qruplaşmalarla bağlı şok faktlar ortaya çıxır. Xüsusilə Ermənistanı fəlakətin kandarına gətirib çıxaran Serj Sarkisyan və Robert Koçaryanın bağlı olduqları kriminal qruplaşmalar yenidən Ermənistan mediasının "diqqətinə" düşüblər. Ermənistanda nəşr olunan "Qraparak" qəzeti S.Sarkisyanın "Respublikaçılar" partiyasından olan keçmiş deputat dostu Mihran Poğosyanla bağlı maraqlı fakt dərc edib.*



Qəzetin yazdığına görə, Ermənistanın sabiq prezidenti S.Sarkisyanla yaxın münasibətləri olan keçmiş deputat nə az, nə çox, düz 1 ton narkotik vasitə olan kokain "ticarəti" ilə məşğul olmaqda ittiham edilir. Qəzet yazır ki, sabiq deputat Rusiyada özünə "yuva" salıb və Ermənistan hüquq-mühafizə orqanlarından gizlənir. Qəzetin yazdığına görə, Ermənistan Milli Təhlükəsizlik Xidməti Rusiya tərəfi ilə danışıqlar apararaq, M.Poqosyanı hazırda İrəvandakı həbsxanada saxlanılan, Rusiya vətəndaşı, amma milliyyətcə erməni olan kriminal avtoritetlə "dəyiş-düyüş" etmək çağırışı edib. "Mənbələrimiz deyirlər ki, Rusiya hüquq-mühafizə orqanları ilə bu yaxınlarda Ermənistanda həbs olunan tanınmış kriminal avtoritetlərdən birinin Poqosyana dəyişdirilməsi ilə bağlı danışıqlar aparılır. Biz məhbusun şəxsiyyətini müəyyən edə bilmədik, o, milliyyətcə ermənidir, lakin Rusiya Federasiyasının vətəndaşıdır və Rusiya üçün onu əldə etmək çox vacibdir, ona görə də mübadilənin baş tutacağı istisna edilmir",-qəzet yazır.

***Mətləb***



Elçin Bayramlı

# Uşaqpulu verilə bilərmi?

***Uşaqpulunun verilməsi məsələsi yenidən aktuallaşıb. Belə ki, "Dövlət sosial müdafiə fondunun 2023-cü il büdcəsi haqqında" qanuna təklif edilən dəyişiklikdə, uşağın anadan olmasına görə əhaliyə ödənişlər üzrə xərclərin 28 milyon manatdan 32 milyon manata qaldırılması nəzərdə tutulur. Böyük ehtimalla bu, doğuma görə birdəfəlik yardımın bir qədər artırılacağı ilə bağlıdır. Hazırda bu məbləğ 300 manat təşkil edir. Lakin ictimaiyyətin müzakirə etdiyi əsas məsələ aylıq uşaqpulunun bərpasıdır ki, bununla bağlı hələ ki, parlamentdə və hökumətdə konkret fikir yoxdur.***

Əlbəttə, istənilən sosial yardımın artırılmasını təqdirəlayiq hesab etmək olar. Çünki, bu sosial təminat cəhətdən zəif vətəndaşların müdafiəsini gücləndirir. Burada söhbət təxminən 50 manat artımdan gedə bilər. Lakin, son illərdə müşahidə olunan bahalaşma və inflyasiya temləri bu artımları "yeyir", ona görə də bu məbləği artım hesab etmək mümkün deyil. Bu, uzaqbaşı indeksasiya və ya kompensasiya adlana bilər. Çünki, pulun nominal dəyəri deyil, real dəyəridir. Son illərdə pulun real dəyəri təxminən 3 dəfə aşağı düşüb, lakin nominal dəyəri artıb.

Birdəfəlik uşaqpulu ilə bağlı də eyni vəziyyətdir. Hazırkı 300 manat bir neçə il əvvəlki 150 manat dəyərində olduğundan bu məbləğin xeyli artırılmasına ehtiyac var. Bunun üçün ölkəmizin kifayət qədər maliyyə-iqtisadi imkanları var. Hazırda verilən 300 manatlıq yardım bir uşağın doğuş xərcinin 1/3-ni də qarşılamır.

Azərbaycanda uşaq doğumuna görə birdəfəlik yardım əksər ölkələrə nisbətdə xeyli aşağıdır. Bəzi ölkələrdə bu, bir neçə min manatdan başlayır, bəzilərində isə 10-20-30 min manat təşkil edir. Bizdə də bu məbləğin ən azı 2-3 min manata qaldırılması vacibdir.

Əlavə olaraq, aylıq uşaqpulu da verilməsi vacibdir. Heç olmasa, ilkin mərhələdə hər uşağa görə 100 manat məbləğində. Əgər imkanlı vətəndaşların buna ehtiyacı olmadığı və ünvanlılıq prinsipi əsas götürülərsə, onda heç olmasa, aşağı gəlirli ailələrin uşaqlarına bu yardımlar ödənilməlidir. Tutaq ki, adambaşına 500 manatdan aşağı gəliri olan 3 və daha çox uşaqlı ailələrə. Belə ailələrin sayı o qədər çox deyil. Bu daha çox, ünvanlılıq sayıla bilər. Hazırda verilən 300 manatlıq birdəfəlik yardım da ünvanlı deyil, milyonçuya da, ən yoxsula da eyni vəsait ödənilir. Sosial yardım qayğıya ehtiyacı olan vətəndaşları əhatə etməlidir. Əslində, dövlətin də məqsədi və mahiyyəti də budur.

Statistika göstərir ki, son illərdə uşaq doğumu kəskin azalır, 1 uşaqlı ailələrin çəkisi sürətlə artır. Bu da milli genefondumuz üçün təhlükəli vəziyyətdir. Bu hal davam etsə demoqrafik vəziyyət ağırlaşacaq, əhalinin qocalması və azalması baş verəcək, işçi qüvvəsinin azalması ilə iqtisadi aktivlik zəifləyəcək və hər 100 işləyənə daha çox pensiya və ya müavinət alanların sayının artması nəticəsində dövlətin sosial yükü artacaq.

1 uşaqlı ailə normal ailə deyil. Bir millətin davamlılığının və milli genofondunun qorunması üçün orta hesabla hər ailədə 3 uşaq olmalıdır. Hələ 3 uşaq belə, əhalinin artımını yox, mövcud sayın qorunmasını təmin edə bilər. Bu vəziyyəti də dövlət stimullaşdırmalı və imkansız ailələrə uşaq pulu formasında yardım etməlidir ki, heç olmasa, uşaqların sağlam böyüməsinə dəstək olsun.

Onsuz da indiki ailələr 3-4 uşaq dünyaya gətirməkdə maraqlı deyillər, yenə əksəriyyəti 1 və ya 2 uşaq dünyaya gətirəcəklər. Onları da normal və sağlam formada böyütmək lazımdır. Bunun üçün də sosial təminat cəhətdən zəif və yaşayış şəraiti ağır olan, əlil, işsiz və kirayələrdə yaşayan ailələrə yardımlar edilməlidir.

Ölkəmizin maliyyə vəziyyəti ilə bağlı heç bir problemi yoxdur və üstəlik, hər il büdcədə lazım olandan da artıq vəsait toplanır, 5-6 milyard manatlıq profisit yaranır ki, bunun da bir hissəsi uşaqlar üçün sosial yardımlara yönəldilə bilər.

# NED-in məqsədi nədir?

## Ədalətsizlik, yalan, qərəz isə heç vaxt həqiqət və reallıq üzərində qələbə çala bilməyib

***Artıq çoxsaylı faktlara və danılmaz dəlillərə əsaslanan bir həqiqətdir ki, ölkəmizdə yürüdülən müstəqil, qətiyyətli, eləcə də inkişaf və tərəqqi amilinə söykənən dayanaqlı siyasətin qarşısını almaqdan ötrü bir sıra Qərb siyasi dairələri tərəfindən təlimatlandırılan xarici QHT-lər, "insan hüquqları təşkilatları", xarici media qurumları, "demokratiya institutları" ardıcıl şəkildə anti-Azərbaycan xarakterli addımlar atmaqda israrlı görünürlər.***



### 1 100 000 ABŞ Dolları həcmində gizli maliyyələşmə haradan qaynaqlanır?

Tanınmış QHT rəsmisi Sahib Məmmədov maraqlı faktlar ortaya çıxarıb. ABŞ NED (National Endowment for Democracy) təşkilatı 2022-ci ildə gizli maliyyələşmə sxemi üzrə (üçüncü ölkələr və diplomatik missiyalar vasitəsi ilə) Azərbaycan təşkilatlarına (Əsasən QHT və media) 1 100 000 ABŞ Dollarından bir qədər artıq qrant ayırıb. Qrantlar aşağıdakı istiqamətlərin maliyyələşməsinə yönəlib:

Korrupsiyaya uğramış tenderlərin sənədləşdirilməsi, Gənc Alimlərin Demokratiya Tədqiqatına cəlb edilməsi, Azərbaycanda Hüquqlardan sui-istifadə və Korrupsiyaya görə hesabatlılığın təşviqi, Yerli iştirak üçün bacarıqların yaradılması, hüquqi yardımların göstərilməsi, İnsan hüquqlarının monitorinqi, Yerli problemlərin həlli, Vətəndaş İştirakının və İcma İştirakının Gücləndirilməsi, və s.

### NED-in dırnaqarası fəaliyyəti

Xülasədən görünür ki, əsas vəsaitlər yerlərdə vətəndaş fəallığının artırılması və şəbəkələşmə, əhalinin ayrı-ayrı təbəqələrinin nümayəndələrinin, o cümlədən gənc alimlərin fəallaşdırılması, sosial şəbəkələrdə iş, korrupsiya ilə bağlı məsələlərin işıqlandırılması kimi sahələri əhatə edir. Bununla belə bəzi istiqamətlərin adı şərti də ola bilər. Məsələn, dini təriqətlərinin inkişafı, orta məktəblərdə dinin tədrisinə nail olunması və ya müxtəlif təriqətlərə mənsub müəllimlərin hazırlanması kimi layihələr də bir qayda olaraq NED tərəfindən maliyyələşdirilən layihələrdəndir.





### Azərbaycanın hədəfə alınması isə, ilk növbədə, qərəzlərdən, qeyri-səmimi münasibətlərdən, düşmən qüvvələrlə eyni baxışdan çıxış edən amillərdən doğan təəssüfedici hallardır

ABŞ-ın Milli Demokratiya İnstitutu, Marşal Fondu, Beynəlxalq İnkişaf Agentliyi, Açıq Cəmiyyət İnstitutu-Yardım Fondu illərdir ki, elə bu prinsiplərlə işləyirlər. Məhz ədalət prinsipinin pozulması - ABŞ-da, digər Qərb ölkələrində istər media, istər sərbəst toplaşmaq, istərsə də bütövlükdə insan hüquqlarının pozulması demək olar ki, ardıcıl və adi hala çevrilib.

### Sapı özümüzdən olan baltaların tiyələrinin nə qədər kor, səmərəsiz olmasını da sübuta yetirəcək

Bütün bunların müqabilində stabil və tərəqqi edən, beynəlxalq mərkəzə çevrilən Azərbaycanın hədəfə alınması isə, ilk növbədə, qərəzlərdən, qeyri-səmimi münasibətlərdən, düşmən qüvvələrlə eyni baxışdan çıxış edən amillərdən doğan təəssüfedici hallardır. Ancaq bu kimi halların qarşısı illər öncədən necə alınıbsa, indi də alınmaqdadır. Bu baxımdan, bir mərkəzdən idarə olunan təzyiq, qərəz, şantaj kampaniyaları onu törədənlərə istədikləri nəticəni əsla verməyəcək.

Məhz nəticə olaraq, bir daha qənaətə gəlmək mümkündür ki, daha öncələr də, hətta ən ağlasığmaz "ittihamlarla" Azərbaycana qarşı çıxan qüvvələr sonda öz əməllərindən heç bir nəticə hasil olmadığını dərk edib, geriyə çəkilmək məcburiyyətində qalıblar. Necə ki, azərbaycanlıların el məsəlində olduğu kimi, yalan ayaq tutsa da, yerimir. Eyni zamanda, sapı özümüzdən olan baltaların tiyələrinin nə qədər kor, səmərəsiz olmasını da sübuta yetirəcək. Belə ki, ədalətsizlik, yalan, qərəz heç vaxt həqiqət və reallıq üzərində qələbə çala bilməyib.

***Afət Tahirqızı***





*Xəbər verdiyimiz kimi, Rusiya prezidentinin nəqliyyat sektoruna cavabdeh köməkçisi İqor Levitin iki gün əvvəl Bakıda Azərbaycan prezidenti ilə növbəti görüş keçirib. Azərbaycan Prezident Administrasiyasının mətbuat xidmətinin məlumatına görə, danışıqlarda Moskva üçün strateji layihə olan Şimal-Cənub nəqliyyat dəhlizinin həyata keçirilməsi, yükdaşımaların həcminin artırılması, müasir nəqliyyat qovşağına çevrilmiş Azərbaycan ərazisi ilə daşımaların perspektivləri və Rusiya tərəfindən gələcəkdə Zəngəzur dəhlizinin potensialından istifadə imkanlarının öyrənilməsi ilə bağlı məsələlər müzakirə olunub.*

# Mixail Belyayev: "Zəngəzur dəhlizinin açılması məcburi tələbdir"





Qeyd edək ki, son aylarda Levitin kifayət qədər müntəzəm olaraq Bakıda Azərbaycan lideri ilə Rusiya-Azərbaycan nəqliyyat əməkdaşlığını müzakirə etmək üçün görüşür.

Şimal-Cənub nəqliyyat dəhlizi mövzusu bu həftə Rusiyanın bu ayın əsas tədbiri- ənənəvi Sankt-Peterburq Beynəlxalq İqtisadi Forumu çərçivəsində müzakirə olunacaq. İyunun 15-də forumda "Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi çərçivəsində iqtisadi əməkdaşlığın inkişafı: avtomobil nəqliyyatı multimodal daşımaların mühüm hissəsi kimi" adlı panel sessiyası keçiriləcək. Tədbirdə digər natiqlərlə yanaşı İqor Levitin, o cümlədən Azərbaycan Beynəlxalq Avtomobil Daşıyıcıları Assosiasiyasının (ABADA) prezidenti Həbib Həsənov, Rusiyanın nəqliyyat naziri Vitali Savelyev, Rusiya Dəmir Yollarının baş direktoru Oleq Belozerov və İranın nəqliyyat naziri Mehrdad Bazrpaş da çıxış edəcək..

Bunun fonunda Azərbaycan prezidenti İlham Əliyev dünən Bakıda Türkiyə lideri Rəcəb Tayyib Ərdoğanla danışıqların yekunlarına dair mətbuat konfransında bildirib ki, o, hər dəfə Türkiyə prezidenti ilə görüşəndə nəqliyyat məsələlərini müzakirə edir. Liderlər danışıqlarda, o cümlədən Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında nəqliyyat və iqtisadi əlaqələrin- Zəngəzur dəhlizinin blokdan çıxarılmasını da müzakirə ediblər.

Əliyev bir daha vurğulayıb: "Zəngəzur dəhlizinin açılması qaçılmazdır. Nə qədər tez açılarsa, bir o qədər yaxşıdır. İstənilən halda biz bu istiqamətdə səylərimizi artıracağıq. Bu dəhlizin açılması bütün ölkələr üçün yeni imkanlar yaradacaq və regionda işgüzar əməkdaşlığa müsbət təsir edəcək".

Niyə Şimal-Cənub və Zəngəzur dəhlizi layihələrinin həyata keçirilməsi Rusiya-Azərbaycan münasibətlərində strateji istiqamətə çevrildi- bunun səbəblərini Rusiya Fond Bazarı və İdarəetmə İnstitutunun baş iqtisadçısı Mixail Belyayev "Moskva-Baku" prtalına şərh edib. Ekspertin fikirlərini oxucularımıza təqdim edirik.

"Rusiya ilə Qərb arasında münaqişənin sözün əsl mənasında "partlaması" ilə əlaqədar yeni nəqliyyat və logistika zəncirlərinin formalaşdırılması Moskva üçün strateji vəzifələrdən birinə çevrilib. Dünya dəyişir, geosiyasi vəziyyət dəyişir, onunla bərabər geoiqtisadi vəziyyət də dəyişir. Rusiya və Azərbaycan kimi dövlətlər isə belə dəyişiklikləri nəzərə alaraq təkcə regional deyil, qlobal xarakter daşıyan layihələr həyata keçirir, əlaqələri möhkəmləndirirlər. Həm Moskva, həm də Bakı birqütblü dünyadan uzaqlaşmanın belə bir ssenarisini qabaqcadan görürdülər. Səbəbsiz deyil ki, 2022-ci ildə Rusiya və Azərbaycan Müttəfiq Əməkdaşlıq Bəyannaməsini imzaladılar. Vaxtilə işə salınan, lakin tam istifadəyə verilməyən "Şimal-Cənub" layihəsi indi yenilənib. Rusiya rəsmiləri müntəzəm olaraq Şimal-Cənub nəqliyyat dəhlizinin əhəmiyyətini təbliğ edirlər.

May ayında Rusiya və İran prezidentləri Rəşt-Astara dəmir yolunun Şimal-Cənub İTC hissəsinin yaradılması üzrə əməkdaşlıq haqqında hökumətlərarası sazişin imzalanması mərasimində videoformatda iştirak ediblər. Sonra Rusiya dövlət başçısı dəhlizin yaradılması sahəsində əməkdaşlığın Azərbaycanla sıx tərəfdaşlıq şəraitində həyata keçirildiyini qeyd edib və Şimal-Cənub marşrutu üzrə dəmir yolu infrastrukturunun inkişafı və yükdaşımaların aparılması sahəsində əməkdaşlıq haqqında sazişin tezliklə RF-İran-Azərbaycan formatında imzalanacağına ümidvar olduğunu bildirib.

Bu gün Rusiya iqtisadi əlaqələrin inkişafı baxımından Qərbdən Şərqə istiqamətlənir. Bu da təkcə Qərbin Rusiya Federasiyasına qarşı sərt siyasət yeritməsi, ona qarşı sanksiyalar tətbiq etməsi ilə deyil, həm də bu vəziyyətdən başlayaraq Rusiyanın inkişaf etməkdə olan bazarlarda öz milli maraqlarını reallaşdırmaq imkanı əldə etməsi ilə bağlıdır. Qərb bazarı faktiki olaraq yüksək doyma dərəcəsinə çatıb və yüksək artım templərini təmin etmir. Şərq istiqamətində isə davamlı inkişaf imkanı var. Şimal-Cənub nəqliyyat dəhlizi Rusiyanı Fars körfəzi, Cənubi Qafqaz və Hindistan ölkələri ilə birləşdirəcək.

Ona görə də Cənubi Qafqaz, Xəzər regionu, hətta daha çox Azərbaycan Rusiya üçün daha da strateji istiqamətə çevrilir. Çünki obyektiv olaraq bu gün Azərbaycan sürətlə inkişaf edən nəqliyyat-logistika qovşağı, Şərqlə Qərbin kəsişdiyi dövlət, müxtəlif nəqliyyat marşrutlarının kəsişdiyi nöqtədir.

Bundan əlavə, İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra Azərbaycan obyektiv və qeyd-şərtsiz təkcə regionda deyil, beynəlxalq aləmdə də öz statusunu yüksəltdi. Onun Rusiya ilə əlaqələri möhkəmlənib (müttəfiqlik bəyannaməsi imzalanıb), Türkiyə ilə münasibətləri çox möhkəmlənib (həmçinin 2021-ci ildə müttəfiqlik Şuşa bəyannaməsi imzalanıb).




Bu gün Azərbaycan bir struktur olaraq Aİ-yə yaxınlaşmağa başlayıb. Və vaxtı çatdığı üçün bunu edir. Bakı nəqliyyat-logistika qovşağı kimi öz potensialını toplayıb və onu daha da geniş şəkildə reallaşdırmağa hazırdır. May ayında Kremldə ilk dəfə Ali Avrasiya İqtisadi Şurasının iclasında iştirak edən Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, rəsmi Bakı öz iqtisadiyyatının şaxələndirilməsinə diqqət yetirir. Buna görə də o, Azərbaycanın ikitərəfli mehriban qonşuluq, konstruktiv əməkdaşlıq münasibətləri inkişaf etdirdiyi Aİ dövlətləri ilə daha sıx qarşılıqlı fəaliyyətdə maraqlıdır.

Bundan əlavə, Azərbaycan son bir neçə ildə liderlik edir və həqiqətən də öz iqtisadiyyatını şaxələndirməyə diqqət ayırıb və bu, çox müdrik yanaşmadır. Bu, sadəcə olaraq, bundan pul qazanan karbohidrogen ölkəsi olmaqdan çıxdı, daha da irəli getdi- qeyri-neft iqtisadiyyatının müxtəlif istiqamətlərdə inkişafı başladı. Yəni Azərbaycan öz inkişafını, deməli, dünyanın müxtəlif yerlərində müxtəlif aktorlarla qarşılıqlı əlaqəni genişləndirməyə, beynəlxalq proseslərə təsirini genişləndirməyə başladı. Və eyni zamanda qonşularla əlaqələri gücləndirin. Belə çoxşaxəli və çox ağıllı siyasət. Qarşılıqlı fəaliyyət coğrafiyasının genişləndirilməsi, əlaqələrin genişləndirilməsi, onun imkanlarının genişləndirilməsi dövlət üçün yeni üfüqlər açır. Azərbaycan son illər öz inkişafının yeni mərhələsinə qədəm qoyub. Və o, öz imkanlarını başqaları ilə bölüşür, bununla da regional və beynəlxalq aktyor statusunu daha da artırır.

Bu gün Azərbaycan müxtəlif qüvvələr üçün maraqlıdır. Amma Bakı öz milli maraqlarını reallaşdırmaqla balansı ustalıqla qorumağı bilir. Bu gün Rusiya ilə münasibətlər qarşılıqlı hörmət əsasında qurulub, heç bir kiçik qardaş-böyük qardaş münasibəti yoxdur-, bunlar bərabərhüquqlu tərəfdaşlardır.

Ona görə də Rusiya üçün həm də Azərbaycan və Ermənistan arasında nəqliyyat-iqtisadi əlaqələrin blokdan çıxartması və onlar arasında nəqliyyat kommunikasiyalarının yaradılması vacibdir. Ona görə də Rusiya Federasiyası Prezidentinin köməkçisi Levitin və Azərbaycan lideri İlham Əliyev bu məsələni müzakirə ediblər, ona görə də, əslində, Moskva 25 mayda Kremldə Putin, Əliyev və Paşinyan arasında keçirilən danışıqlarda bu istiqamətin həyata keçirilməsini sürətləndirib.. Rusiya rəsmilərinin sözlərinə görə, Azərbaycanın qərb rayonları və Naxçıvan hissəsi arasında Ermənistan ərazisindən keçməklə dəmir yolu layihəsinin həyata keçirilməsinə dair razılaşmalar var.

Əslində, Şimal-Cənub nəqliyyat dəhlizi Azərbaycanla Ermənistan arasında keçəcək və nəhayət onun ətrafındakı digər dövlətlərə çatacaq nəqliyyat marşrutu təxminən eyni oyunçuların cəlb olunduğu vahid nəqliyyat xəritəsinə çevriləcək.

Bütövlükdə həm Rusiya, həm Azərbaycan, həm də Ermənistan Cənubi Qafqazda blokun açılmasında maraqlıdır. Və Türkiyə ki, Rəcəb Tayyib Ərdoğan da dünən Bakıda bunu bir daha açıqladı.

Ermənistan uzun illər Qarabağ münaqişəsinə görə blokada vəziyyətində idi. Transqafqazda nəqliyyat yollarının açılması ilə onun Rusiyaya, Türkiyəyə birbaşa çıxışı olacaq. Ermənistanın daha dinamik inkişaf yoluna qədəm qoymasına imkan verəcək. O, ehtiyac duyduğu bazarlara və ikitərəfli trafikə çıxış əldə edəcək. Burada Ermənistanın qazanacağı çox şey var.

Azərbaycan Ermənistanla nəqliyyat əlaqələrinin açılması nəticəsində digər dövlətlər- Rusiya, Türkiyə və Ermənistan üçün tranzit ərazi statusunu daha da artıracaq.

Bəli, Azərbaycanla Ermənistan arasında blokun açılması məsələsində fikir ayrılığı var. Amma onlar daha çox texniki xarakter daşıyır və mən əminəm ki, Rusiya layihənin həyata keçirilməsində son dərəcə maraqlı olan ölkə kimi bütün mübahisəli məsələləri həll etməyə çalışacaq. Və məncə, tərəflər yenə də qarşılıqlı güzəştə getməli olacaqlar.

İqtisadçılar üçün aydındır ki, nəqliyyat arteriyası ətrafında həmişə inkişaf var. Nəqliyyat dövlət üçün çətinləşərsə, sosial-iqtisadi inkişaf da çətinləşir.Nəqliyyat layihələrinin həyata keçirilməsi qazanc deməkdir, iş yerlərinin və onu müşayiət edən magistral yolun ətrafında inkişaf edən iri sənayenin, kiçik və orta sahibkarlığın yaranmasını nəzərdə tutur. Nəqliyyat marşrutlarının həyata keçirilməsi iqtisadi həyat verir.

Bölgədə və dünyada mövcud vəziyyət, məsələnin Rusiya, Azərbaycan, Türkiyə üçün aktuallığı getdikcə daha təkidlə blokun açılması üçün konkret həll yollarını tələb edir. Rusiya Federasiyası üçün bu, iqtisadi cəhətdən vacib vəzifəni həll etməklə yanaşı, həm də onun sərhədləri yaxınlığında təhlükəsizlik məsələsidir.

***Tərcümə - Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti çərçivəsində hazırlanıb.***

Səs
15 iyun 2023-cü il



# Ronaldo anons etdi: ulduzlar Ərəbistana axın edəcək

***"Əl-Nəsr"in hücumçusu Kriştiano Ronaldo keçmiş komanda yoldaşı Kərim Benzemanın Səudiyyə Ərəbistanının "Əl-İttihad" klubuna keçidinə münasibət bildirib.***

Bu barədə "Fourfourtwo" nəşri yazır. Məlumatda deyilir ki, portuqaliyalı hücumçu Səudiyyə Ərəbistanı çempionatına Avropadan hələ çox oyunçu gələcəyini deyib: "Benzemanın "Əl-İttihad"a keçməsi məni təəccübləndirmədi, amma bütün dünyada insanların Səudiyyə Ərəbistanı Liqasını izlədiyini görməkdən çox şadam. İnanıram ki, liqa inkişaf etməyə davam edəcək və bura Avropanın liqalarından çox oyunçu gələcək."



VƏKİL AÇIQLADI

# Adımızı necə dəyişə bilərik?

"Adın, ata adının və soyadın verilməsi və dəyişdirilməsi qaydaları ilə tənzimlənir. Bu qaydalar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 may tarixli 79 nömrəli qərarı ilə təsdiq edilmişdir". Bu sözləri SİA-ya açıqlamasında vəkil Turan



Abdullazadə deyib. Onun sözlərinə görə, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 26.1-ci maddəsinə əsasən hər bir fiziki şəxsin adı addan, ata adından və soyaddan ibarətdir: "Adın verilməsindən və ya dəyişdirilməsindən imtina edilməsi barədə qeydiyyat orqanının qərarından inzibati qaydada və (və ya) məhkəməyə şikayət verilə bilər.

Azərbaycan Respublikası Ailə Məcəlləsinin 53.2-ci maddəsinə müvafiq olaraq uşağa ad valideynlərin razılığı ilə verilir. Uşağın soyadı, bir qayda olaraq, valideynlərin soyadı ilə müəyyən edilir. Uşağın valideynlərinin soyadları müxtəlif olduqda, uşağa valideynlərin razılığı ilə atanın və ya ananın soyadına uyğun soyad verilir. Azərbaycan Respublikasının 18 yaşına çatmış hər bir vətəndaşının ərizəsinə əsasən onun mövcud soyadının sonluğuna dəyişiklik edilir. 18 yaşına çatmayanların soyadlarının sonluğuna dəyişiklik onların valideynlərinin və digər qanuni nümayəndələrinin (övladlığa götürənlərin, qəyyumun və ya himayəçinin) ərizəsi əsasında həyata keçirilir. Hər iki valideynin soyadının sonluğu dəyişdirildikdə, 18 yaşına çatmayanların soyadlarının sonluğu da dəyişdirilir. 10 yaşına çatmış uşağın soyadının sonluğu yalnız onun razılığı ilə dəyişdirilir. Azərbaycan Respublikası vətəndaşlarının öz adını, ata adını və soyadını dəyişdirməsinə 18 yaşına çatdıqdan sonra yol verilir. Adın, ata adının və soyadın dəyişdirilməsi qeydiyyat şöbəsi və ya konsulluq tərəfindən həyata keçirilir. Ərizə verən şəxs cinayət mühakimə icraatına şübhəli və ya təqsirləndirilən şəxs qismində cəlb edildiyi dövrdə, onun götürülməmiş və ya ödənilməmiş məhkumluğu olduqda, habelə barəsində tibbi xarakterli məcburi tədbirlər tətbiq edilmiş şəxs olduqda adın, ata adının, soyadın dəyişdirilməsinə yol verilmir. Adın, ata adının, soyadın dəyişdirilməsinə dair sənədlər, o cümlədən qeydiyyat orqanının rəyi qeydiyyat şöbəsində və ya konsulluqda 75 il müddətində saxlanılır".

*Ayşən Vəli*

# Vatsapdan gələn iş təkliflərinə inanmaq olar?



"Sizin nömrənizə çox cazib iş təklifləri gəlirsə bu nömrə böyük ehtimalla Azərbaycan prefiksinə sahib olmayacaq. Bu üsulla dələduzluq edənlər əsasən həmin nömrələri kirayələyirlər" Bu sözləri SİA-ya verdiyi açıqlamada İT mütəxəssisi Bəxtiyar Həsənov bildirib.

O, qeyd edib ki, əgər sizə xarici qeydiyyatlı bir nömrədən mesaj gəlirsə bu təklifə, bu mesaja məsafəli davranmağınız məsləhətdir: "Sizə yazan xarici prefiksli nömrə profili təsdiqlənmiş bir hesabdan

İT MÜTƏXƏSSİSİ DANIŞDI

yazmırsa yenə də şübhəli yanaşmalısız. Bəzi hallarda xarici şirkətlər də bu cür kommunikasiya üsullarından istifadə edə bilirlər. İntəhası, təsdiqlənməmiş, xarici prefiksli nömrələrə etibar etməyin.

İkinci məsələ ondan ibarətdir ki, bu "iş təklifləri" "+994" prefiksiylə də edilə bilər. Lakin bu variantda da dələduzluq hallarıyla qarşılaşılır. Unutmayın, heç bir iş təklifində filan işi görəcəksən, filan qədər pul qazanacaqsan kimi təkliflər olmur. Normal iş təkliflərində ən sadə işi görmək üçün belə sizdən "CV" tələb olunur.

Məqsədini dəqiq bilmədiyiniz bu adamın sizdən nələr tələb etdiyinə baxmaq lazımdır. Çox sadə iş görəcəksən, çox qazanacaqsan və gəlirin getdikcə artacaq deyilirsə bunun saxtakarlıq halı olmaq ehtimalı çox yüksəkdir. Çox vaxt bu cür hallarda ilkin olaraq sizdən müəyyən bir ödəniş etməyiniz və atılan linki paylaşmağınız tələb olunur. Linki paylaşdıqda sizə ödədiyiniz məbləği geri qaytarırlar və sizdə özlərinə qarşı etibar yaradırlar. Bu məbləğ artdıqca sizə daha çox qazandırırlar. Dördüncü və beşinci dəfə sizdən daha çox məbləğ tələb edib, daha çox qazanacağınızı vəd edirlər. Siz həmin məbləği də ödədikdə pulunuz əsla geri qayıtmır. Nəticədə onlar istədikləri məbləği sizdən almış olurlar. Bu tip hallardan mütləq qorunmaq lazımdır. Vatsapın təklif etdiyi belə bir variant var ki tanımadığınız nömrədən gələn mesajları "spam mesaj" olaraq işarələyə bilirsiz. Bunun sayəsində artıq sizə həmin nömrədən heç bir təklif gəlmir. Bununla yanaşı siz xarici bir dələduzun hədəfindəsinizsə sizə yazılan mesaj xətalarla dolu olacaq. Çünki bu dələduzlar əsasən tərcümə proqramlarından istifadə edirlər. Həmin təbiqlərdə də tərcümə edilən yazılar çox qeyri-peşəkar stildə olur".

***F. Mehdixanlı***

# Süni mayalanmanın hansı riskləri var?

"Süni mayalanma olduqca normal prosedurdur. Bütün dünyada süni mayalanma yolu ilə müalicə qəbul olunan bir üsul hesab olunur". Bu sözləri SİA-ya verdiyi açıqlamada cərrah, mama-ginekoloq Ləman Əliyeva deyib.

O bildirib ki, sözügedən üsulun hər hansı ziyanı yoxdur, əks halda bu insanların üzərində tətbiq olunmazdı: "Gələcəkdə baş verə biləcək fəsadlara gəldikdə isə təbii mayalanma üsulu ilə doğulan uşaqlarda da hansı fəsadlar müşahidə olunursa süni mayalanmada da eyni fəsadlar baş verə bilər. Bu fəsadların süni mayalanmayla bağlı olduğunu düşünmürəm.

Məsələni daha yaxşı başa düşmək üçün süni mayalanmanın nə olduğunu bilməliyik. Süni mayalanma təbii sürətdə gedən



GİNEKOLOQ ŞƏRH ETDİ

mayalanma prosesinin, adından da bəlli olduğu kimi, kənarda süni formada yumurta hüceyrənin spermatozoidlə mayalandırıb uşaqlıq bətninə yerləşdirməsi prosesidir. Bu proseslər hamısı tibbi qaydalara müvafiq olaraq, steril şəraitdə həyata keçirilməlidir. Belə olduğu halda heç bir problem yoxdur. Mən deyərdim ki, genetik xəstəliklərin uşaqda çıxmaq ehtimalı süni mayalanma üsulunda daha azdır. Çünki təbii üsulla mayalanmadan fərqli olaraq, süni mayalanma üsulunda hər şey dəqiqliyiylə yoxlanılır, genetik analizlərə baxılır. İntəhası, süni mayalanma üsuluyla dünyaya gələcək uşaqda süni mayalanma qaynaqlı hər hansı bir problemin çıxacağını demək çox yanlışdır".

***Fazil***

**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 4000**